

YAP-ın 20 illiyi ilə əlaqədar tədbir səh. 3

*Aida İmanquliyeva – görkəmli şərqşünas alim* səh. 2

Türkiyə və Koreya universitetləri ilə müqavilə səh. 3




Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

1929-cu ildən çıxır
**Təsisçi:** Bakı Dövlət Universiteti

№ 10 (1433) 16 oktyabr 2012-ci il


# Prezident İlham Əliyev: “Bakı Beynəlxalq Humanitar Forumu dünya miqyasında humanitar məsələlərlə bağlı yeni formatdır”



**Oktyabrın 5-də Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində “XXI əsrdə qloballaşma proseslərinə yeni metodoloji yanaşmalar” mövzusunda “dəyirmi masa” keçirilib. Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov deyib ki, artıq ikinci dəfədir ki, Azərbaycan bu cür mötəbər tədbirə ev sahibliyi edir. Keçənilki Forumdan fərqli olaraq bugünkü tədbirdə daha çox qonaq iştirak edir. Bu göstərici tədbirə verilən önəmi sübut edir.**


Nobel mükafatçıları BDU-da səh. 2

Belqrad Universitetinin nümayəndə heyətilə görüş səh. 2

Səfir Maya Xristova universitetdə səh. 3

Əməkdaşlıq müqaviləsi səh. 2

Yaponiyanın sabiq nazir müavini ilə görüş səh. 2

İndoneziyanın ölkəmizdəki səfiri BDU-da olub səh. 4

"İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏ" səh. 4

Rəhim Rəhimli, yoxsa Rəhim Hüseynov? səh. 4

Unudulmaz alim səh. 4

Tələbə Həmkarlar İttifaqı Komitəsi birincilərlə görüşüb səh. 8

Akademik Vasim Məmmədəliyev - 70 səh. 5

“Azərbaycan – gözəl diyar!” səh. 7

Tanrıya sevgi və insanlıq bayramı səh. 7

3 sual 3 cavab səh. 8

Əslində isə... səh. 8

Prezident təqaüdçüləri səh. 6

"Yeni jurnalistlər nəsli" layihəsi səh. 6

Dinləmək müdriklik göstəricisidir səh. 8

Şeir çələngi səh. 7

# Rektora "Elm və Texnologiya sahəsində 2012-ci ilin İSESCO mükafatı" verilib

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESCO) "Elm və Texnologiya sahəsində 2012-ci ilin İSESCO mükafatı"nın rektor, akademik Abel Məhərrəmova verilməsi haqqında qərar qəbul edib. Bu prestijli mükafat akademik Abel Məhərrəmova Kimya (nanomateriallar və nanotexnologiyalar) sahəsindəki böyük uğurlarına görə verilib. Mükafata sertifikat, qızıl medal və pul daxildir. Mükafat 20-21 noyabr 2012 tarixlərində Sudanın Xartun şəhərində keçiriləcək "Ali Təhsil və Elmi Tədqiqatlar Nazirlərinin altıncı İslam Konfransı"nın çərçivəsində təqdim ediləcək.

"Elm və Texnologiya sahəsində mükafat" İSESCO tərəfindən təşkilatın üzvü olan 56 ölkə üzrə sosial-iqtisadi əhəmiyyətli elmi-texniki problemlərin həll olunması uğrunda görülən mühüm işləri mükafatlandırmaq və innovativ istedadlı insanları təşviq etmək məqsədilə 2008-ci ildə təsis edilib. Həmin mükafat 2 ildən bir - biologiya, kimya, geologiya, riyaziyyat və fizika sahələrində əldə edilən nailiyyətlərə görə 56 ölkə üzrə yalnız 1 nəfərə verilir. Akademik Abel Məhərrəmov bu mükafata layiq görülən ilk azərbaycanlı alimdir.

Qeyd etmək lazımdır ki, İslam Təhsil Elm və Mədəniyyət Təşkilatı (İSESCO) 1979-ci ildə "İslam Konfransı" Təşkilatı tərəfindən təsis edilib. Təşkilatın baş qərargahı Rabat (Mərakeş) şəhərində yerləşir. Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyeva bu təşkilatın xoşməramlı səfiridir.

# Nobel mükafatçıları ilə görüş

Oktyabrın 6-da rektor, akademik Abel Məhərrəmov Amerika astrofiziki, ABŞ-ın Masaçusets Texnologiya Universitetinin alimi, Nobel mükafatı laureatı Corc Fitzgerhald Smutu qəbul edib. Universitet haqqında məşhur alimə məlumat verən akademik Abel Məhərrəmov BDU-nun yaranma və inkişaf tarixindən, bu təhsil ocağının beynəlxalq əlaqələrindən, əməkdaşlıq etdiyi aparıcı universitetlərdən, tanınmış assosiyasiyalar və qurumlarla əlaqələrindən, beynəlxalq qrant layihələrində iştirakından danışıb. Bildirib ki, BDU dünyanın aparıcı təhsil ocaqları ilə yanaşı, Amerika universitetləri ilə də səmərəli ikitərəfli əlaqələr qurub və bu münasibətləri daha da genişləndirmək niyyətindədir.

Nanotexnologiya və innovasiyalardan danışan rektor, azərbaycanlı alimlərin ABŞ-dan olan həmkarlarının bu sahədəki təcrübələrindən yararlandıqlarını da diqqətə çatdırıb.

Daha sonra alim Fizika fakültəsinin müəllim və tələbələrinə mühazirə oxuyub və tələbələrin verdiyi suallara ətraflı cavab verib.

***

Oktyabrın 6-da rektor, akademik Abel Məhərrəmov Kaliforniyanın Stenford Universitetinin professoru, fizika üzrə Nobel mükafatı laureatı Laflin Robert Betts və kimya üzrə Nobel mükafatı laureatı Markus Rudolf Arturu qəbul edib. Görüş zamanı Nanotexnologiya və innovasiyalardan bəhs edən rektor, azərbaycanlı alimlərin ABŞ-dan olan həmkarlarının bu sahədəki təcrübələrindən yararlandıqlarını da diqqətə çatdırıb.

Daha sonra Nobel mükafatı laureatları - Laflin Robert Betts və Markus Rudolf Artur fizika və kimya fakültəsinin müəllim və tələbələrinə mühazirə oxuyub, verilən suallara ətraflı cavab veriblər. BDU-nun Nanoaraşdırmalar laboratoriyasında olan məşhur alimlər, orada aparılan elmi tədqiqat işləri ilə yaxından tanış olub, bu işlərə yüksək qiymət veriblər. Alimlər tədqiqat işlərinin elm tutumlu istehsal sahələri ilə əlaqələr qurulması istiqamətində öz məsləhətlərini də veriblər.

# "Qloballaşma şəraitində elm və təhsil sahəsində inteqrasiya prosesləri"

Oktyabrın 2-də "Qloballaşma şəraitində elm və təhsil sahəsində inteqrasiya prosesləri" mövzusunda tədbir keçirilib. Rektor, akademik Abel Məhərrəmov tədbiri giriş sözü ilə açaraq iştirakçıları, o cümlədən qonaqları salamlayıb. Rektor Azərbaycan təhsilinin inkişafından, ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən təhsil strategiyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsindən bəhs edib. Bu gün təhsilimizin yeni keyfiyyət mərhələsinə qədəm qoyduğunu və bu istiqamətdə irəlilədiyini vurğulayan rektor Abel Məhərrəmov BDU-nun qloballaşma şəraitində elm və təhsil sahəsində inteqrasiya prosesində iştirakından, bu sahədə əldə edilən uğurlu nəticələrdən danışıb.

Tədbirin bu yaxınlarda Bakıda keçiriləcək İkinci Humanitar Forumu qabağı təşkil olunmasının əhəmiyyətindən danışan rektor, qloballaşan dünyada vahid təhsil sisteminə inteqrasiyanın bir zərurətə çevrildiyini qeyd edib.

Daha sonra tədbirdə iştirak edən xarici qonaqlara söz verilib. Qeyd edək ki, tədbirdə Latviya Respublikasının VI Prezidenti, BMT Baş Katibinin xüsusi elçisi, Avropa İttifaqının uzunmüddətli inkişaf proqramının vitse-prezidenti Dr.Vaira Vike-Freiberga, İsgəndəriyyə Kitabxanasının direktoru, Dünya Elektron Kitabxanasının icraçı direktoru, BMT Baş Katibinin Sivilizasiyalar Alyansı üzrə Səfiri, Dr.İsmayıl Seragəldin, Qırğızıstan parlamentinin deputatı, sosial demokrat fraksiyasının və müvəqqəti hökumətin rəhbəri Dr. Roza Otunbayeva, İngiltərənin ilk və yeganə Kraliyyət İnstitutunun, Oxford Universiteti Linkoln Kollecinin rəhbəri, Heriot Vatt Edinburgh Universitetinin rektoru, İngiltərə Lordlar Palatasının üzvlərindən biri, BBJ nin elmi verlişləri proqramının mütəmadı aparıcısı Baronessa Susan Greenfield, İsveç Konfederasiya Prezidentinin müşaviri, UNESCO və Beynəlxalq Telekommunikasiya Birliyinin komissarı, BMT-nin Elektron Hökumət Komissiyasının sədri, Roma Klubunun idarə heyətinin üzvü, St Galan ve Lugano universitetlərinin professoru Səfir Valter Füst, Madrid klubunun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Mrs.Agustine Briano iştirak edib.

Tədbirin sonunda ali qonaqlara BDU-nun fəxri qonağı adı verilib, eyni zamanda, BDU ilə İsgəndəriyyə Kitabxanası arasında Anlaşma memorandumu imzalanıb.

# Argentina və Bolqarıstan Universitetlərilə əməkdaşlıq müqaviləsi imzalanıb

Oktyabrın 3-də Argentinanın Rosario Milli Universitetinin rektoru Dario Maiorana və Bolqarıstanın St.Kliment Orhidski Universitetinin rektoru İvan İliçev Dimitrov Bakı Dövlət Universitetində olublar. Qonaqları qəbul edən rektor, akademik Abel Məhərrəmov universitetin yaranma və inkişaf tarixindən, beynəlxalq əlaqələrindən danışıb. Qloballaşan dünyada vahid təhsil sisteminə inteqrasiyanın əhəmiyyətini vurğulayan rektor bunun reallaşması istiqamətində universitetlərarası əməkdaşlığın önəmini xüsusilə qeyd edib.

Sonda Bakı Dövlət Universiteti və adıçəkilən universitetlər arasında ayrı-ayrılıqda əməkdaşlıq müqaviləsi imzalanıb. İmzalanan əməkdaşlıq müqaviləsi iki qurum arasında tədqiqatçı və doktorantların mübadiləsini, professor və müəllim heyətinin elmi sahədə ixtisaslarının artırılmasına qarşılıqlı yardımı, qabaqcıl inkişaf metodları sahəsində təcrübə mübadiləsini, ikitərəfli birgə simpozium, seminar və konfrans təşkilini və qarşılıqlı maraq doğuran layihə və proqramlarda tərəflərin birgə iştirakını nəzərdə tutur.

# Aida İmanquliyeva – görkəmli şərqşünas alim

***Oktyabrın 10-da BDU-da görkəmli şərqşünas alim Aida İmanquliyevanın 73 illiyi ilə əlaqədar ərəb filologiyası sahəsində məqalə müsabiqəsinin yekunlarına həsr olunmuş tədbir keçirilib.*** Təbdiri giriş sözü ilə açan rektor, akademik Abel Məhərrəmov Aida xanım İmanquliyevanın zəngin elmi fəaliyyətindən, şərqşünaslığın inkişafındakı müstəsna xidmətlərindən danışıb. O bildirib ki, alimin əsərləri dünya şərqşünaslığı xəzinəsinə daxil olan çox dəyərli araşdırmalardır.



Daha sonra çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri professor Hicran Hüseynova 20 il öncə dünyasını dəyişmiş böyük alimin keçdiyi 53 illik həyat yolundan, zəngin və dəyərli elmi fəaliyyətindən bəhs edib.

Şərqşünaslıq fakültəsinin dekanı dosent Elxan Əzizov isə professor Aida İmanquliyevanın özündən sonra Azərbaycan şərqşünaslığını zənginləşdirən qiymətli elmi irs qoyduğunu xatırladıb. O deyib ki, Aida İmanquliyeva yeni və müasir ərəb ədəbiyyatının ən nüfuzlu, ən fundamental tədqiqatçılarından biri kimi şərqşünaslıq tarixinə əbədi daxil olan azsaylı mütəxəssislərdəndir. Onun ərəb-məhcər ədəbiyyatının görkəmli nümayəndələrinin həyat və yaradıcılığına həsr etdiyi tədqiqatlar öz orijinallığını, zənginliyini, nəzəri dərinliyini, konseptuallığını daim qoruyub saxlayan, buna görə də mütəxəssislərin stolüstü kitablarına çevrilən əsərlərdir.

M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Bakı filialının rektoru, professor Nərgiz Paşayeva isə deyib ki, müasir tələbələr A.İmanquliyevanı görə bilməsələr də, onun yazdığı elmi kitabları, əsərləri oxumaqla Azərbaycanın elm, mədəniyyət, təfəkkür tarixində yeri olan belə əvəzsiz alim haqqında geniş məlumat əldə edə biləcəklər. Gələcək nəsillər, xüsusilə də şərqşünaslıq elmi ilə məşğul olan hər bir tədqiqatçı A.İmanquliyevanın zəngin elmi irsindən istifadə edəcək və onun əsl alim kimi keçdiyi şərəfli ömür yolunu yenidən öyrənəcək. Nərgiz xanım bu cür müsabiqənin keçirilməsinin gənc alimlərə müsbət təsir göstərdiyini, Aida İmanquliyevanın həyat və fəaliyyətinin onlar üçün yaxşı nümunə olduğunu deyib.

Qeyd edək ki, tədbirdə görkəmli alimin həyatına həsr olunmuş filmin nümayişi olub. Sonda Aida İmanquliyevanın 73 illiyinə həsr olunmuş ərəb filologiyası sahəsində məqalə müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

# Belqrad Universitetinin nümayəndə heyətilə görüş

Serbiyanın Belqrad Universitetinin rektoru, akademik Vladimir Bumbaşireviç, prorektor, professor Marko İvetiç, Mühəndislik fakültəsinin dosenti Yovan Despotoviç, Beynəlxalq Memarlıq Akademiyasının üzvü, professor Pyotr Arsiç və Serbiyanın Azərbaycandakı səfiri Zoran Vayoviç universitetdə olub.

Rektor Abel Məhərrəmovla görüşən akademik Vladimir Bumbaşireviç BDU-da olmaqdan məmnunlugunu ifadə edib və rəhbərlik etdiyi universitet haqqında məlumat verib.

Görüşdə universitetlərarası əməkdaşlığın perspektivləri müzakirə olunub. Sonra əməkdaşlıq müqaviləsi imzalanıb. İmzalanan müqavilə tələbə, tədqiqatçı və doktorantların mübadiləsini, professor və müəllim heyətinin elmi sahədə ixtisaslarının artırılmasına qarşılıqlı yardımı, ikitərəfli birgə simpozium, seminar və konfrans təşkilini və qarşılıqlı maraq doğuran layihə və proqramlarda birgə iştirakı nəzərdə tutur.

*Qeyd edək ki, Belqrad Universiteti Avropanın ən qədim universitətlərindən biridir. 1808-ci ildə Ali Məktəb kimi yaranan bu təhsil ocağı 1905-ci ildə kralın sərəncamı ilə universitet statusu qazanıb. Hal-hazırda Belqrad universitetində 31 fakültə, 11 elmi-tədqiqat institutu və müxtəlif sahələrlə bağlı 8 Mərkəz fəaliyyət göstərir. 2000-ci ildə Serbiyada baş verən "Buldozer inqilabı"ndan sonra Belqrad universitetinə daha çox müstəqillik verilib, universitet Bolonya prosesinə qoşulub.*

# Yaponiyanın sabiq nazir müavini ilə görüş

Oktyabrın 3-də rektor Abel Məhərrəmov Yaponiyanın sabiq Xarici İşlər Vitse-Naziri və Nümayəndələr Palatasının keçmiş üzvü, hal-hazırda Çiba Ticarət Universitetindəki Elmlər Akademiyasının professoru, Beynəlxalq Siyasi Tədqiqatlar İnstitutunda tədqiqat üzrə məsləhətçi, Vilton Parkda baş məsləhətçi və Yaponiyanın Xarici İşlər Nazirliyində Beynəlxalq Sülh Əməkdaşlığı üzrə Məsləhət Qrupunun üzvü Akiko Yamanakanı qəbul edib. Rektor öncə qonağa universitet haqqında məlumat verib. BDU-nun beynəlxalq əlaqələrindən, Yaponiya Universitetləri ilə əməkdaşlığından, həmçinin sədri olduğu Azərbaycan-Yaponiya parlamentlərarası dostluq qrupunun fəaliyyətindən bəhs edib. Prezident İlham Əliyevin Yaponiya ilə münasibətlərə xüsusi önəm verdiyini deyən Abel Məhərrəmov əlaqələrdə təhsil siyasətinin xüsusi yer tutduğunu bildirib. Bu siyasətin həm Qərbə, həm də Şərqə inteqrasiya olduğunu deyən rektor 2000-ci ildən BDU-da yapon dilinin tədris edildiyini və universiteti bu ixtisas üzrə 70-dən çox məzunun bitirdiyini diqqətə çatdırıb. Abel Məhərrəmov həmçinin Yaponiyada elmin, texnologiyanın sürətlə inkişaf etdiyini vurğulayıb və Bakı Dövlət Universiteti olaraq Yaponiya elminə böyük önəm verdiklərini deyib.

Akiko Yamanaka da öz növbəsində Azərbaycan-Yaponiya münasibətlərinin inkişafından razılıq ifadə edib, əlaqələrin daha da genişlənməsində maraqlı olduqlarını bildirib.

Görüşdə Yaponiyanın ölkəmizdəki səfiri Şusuke Vatanabe də iştirak edib.

*Qeyd edək ki, Akiko Vatanabe, eyni zamanda, Kembric Universitetindəki Kembric Mərkəzi Asiya Forumunun Baş Diplomatik əməkdaşıdır və mədəniyyətlərarası araşdırmalar, beynəlxalq sülh quruculuğu və preventiv dövlət nəzəriyyəsi, beynəlxalq danışıqlar və strateji araşdırmalar onun təcrübə sahəsinə daxildir. O, bu və digər mövzular üzrə beynəlxalq səviyyədə geniş yazılar dərc etdirmiş və mühazirələr oxumuşdur. Xanım Yamanaka hal-hazırda insan təhlükəsizliyi, xüsusilə də su, enerji və ərzaq təhlükəsizliyi, eləcə də təbii və insan tərəfindən törədilmiş fəlakətlərə qarşı xəbərdarlıq edici tədbirlər üzrə işləyir.*

*Səhifəni təqdim etdi: Mətbuat və İnformasiya şöbəsi*

# "XXI əsrdə qloballaşma proseslərinə yeni metodoloji yanaşmalar"

***Oktyabrın 5-də İkinci Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində "XXI əsrdə qloballaşma proseslərinə yeni metodoloji yanaşmalar" mövzusunda "dəyirmi masa" keçirilib. Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov deyib ki, artıq ikinci dəfədir ki, Azərbaycan bu cür mötəbər tədbirə ev sahibliyi edir. Keçənilki Forumdan fərqli olaraq bugünkü tədbirdə daha çox qonaq iştirak edir. Bu göstərici tədbirə verilən önəmi sübut edir. "Dəyirmi masa"da bölmə iclaslarında maraqlı məsələlər müzakirə olunacaq, humanitar siyasətin əhəmiyyəti, gələcəyi barədə diskussiyalar aparılacaq.***



Sonra "dəyirmi masa" Nobel mükafatı laureatı, ABŞ-ın Stanford Universitetinin professoru Robert Laflinin moderatorluğu ilə "Virtual reallıq və cəmiyyətin inkişafı" mövzusunda bölmə iclasında işini davam edib. İclasda müxtəlif mövzularda çıxışlar dinlənilib. Çıxış edənlər belə bir mötəbər tədbirin təşkilinə görə Azərbaycan Prezidentinə və hökumətinə minnətdarlıq ediblər. R.Laflin deyib ki, bu gün insanlar arasında olan çox çevik ünsiyyət müəyyən problemlər yaradacaqdır. Ona görə də biz qloballaşan dünyada yeni imkanlar tapıb bu problemlərin həllinə çalışmalıyıq. Müzakirə olunan məsələ də çox aktualdır və ümid edirəm ki, Bakı Beynəlxalq Humanitar Forumunda biz bu və digər suallara cavab tapacağıq.

Sonra Yaponiya xarici işlər nazirinin müavini Akiko Yamanaka "XXI əsrdə insan təhlükəsizliyinin perspektivləri" mövzusunda məruzə ilə çıxış edib. O deyib ki, XX əsrdə soyuq müharibə başa çatandan sonra təhlükəsizlik məsələsi forma və mahiyyətini dəyişib. Son zamanlar baş verən hadisələr, təbii fəlakətlər bizi bu məsələlərə daha ciddi yanaşmağa, metod və metodologiyanı dəyişməyə vadar edir. Azərbaycan rəhbərliyinin təşəbbüsü ilə bu tədbirin keçirilməsini yüksək qiymətləndirirəm. Bu, həm də Azərbaycanın qlobal təhlükəsizliyə verdiyi önəmin göstəricisidir. Azərbaycan bu gün təkcə regionda deyil, bütün dünyada sülhə və təhlükəsizliyə böyük töhfələr verir. Gənc, müstəqil bir dövlətin Əfqanıstanda, Kosovoda, İraqda sülhyaratma əməliyyatlarında iştirak etməsi çox böyük məsələdir. Azərbaycan təbii ehtiyatların qorunmasında, beynəlxalq əməkdaşlıq, ərzaq təhlükəsizliyi, alternativ enerji sahəsində çox böyük rol oynayır. Hesab edirəm ki, bu tədbirdə çıxış edənlər, eləcə də bizim digər dostlarımız Azərbaycana dəstək verməliyik.

Daha sonra Rusiya Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun təkamül epistemologiyası sektorunun müdiri, fəlsəfə elmləri doktoru Yelena Knyazeva "Mürəkkəblik nəzəriyyəsi əsasında qlobal meyillərin strateji görünüşü", Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin fəlsəfə kafedrasının müdiri, Rusiya Fəlsəfə Cəmiyyətinin birinci vitse-prezidenti, fəlsəfə elmləri doktoru Aleksandr Çumakov "Qloballaşma: reallıq və dünyanın inkişaf perspektivləri", Rusiyanın Geoiqtisadiyyat və Qlobalistika İctimai Elmlər Akademiyasının prezidenti, iqtisadiyyat elmləri doktoru Ernest Koçetov "Dünyanın dərkinin qlobal metodologiyasında humanitar sıçrayış ("faza keçidi" və onun metodoloji və nəzəri dərki)", professor Çingiz İsmayılov "Virtual reallıq məkanı transformasiya məkanı kimi", professor Fikrət Əfəndiyev "Virtual reallıq və informasiya cəmiyyəti" mövzularında məruzələrlə çıxış ediblər.

Çıxışlarda qloballaşma proseslərinin cəmiyyətə təsiri, eyni zamanda, qloballaşmanın yaratdığı problemlərin həllində səylərin birləşdirilməsi ilə bağlı təkliflər səslənib.

Rektor Abel Məhərrəmovun moderatorluğu ilə keçən ikinci bölmə iclasında "Gənc nəslin formalaşmasında virtual universitetlərin rolu" məsələsi müzakirə olunub. Rektor "Virtual təhsil: nailiyyətlər, problemlər, perspektivlər" mövzusunda çıxış edərək bildirib ki, müasir gənclik virtual informasiyaya, auditoriyaya daha çox maraq göstərir. Bugünkü müzakirələrdə biz yaşlı nəsillə gənc nəslin düşüncə tərzindəki fərqləri aydınlaşdırmalı, gənclər üçün daha doğru olan yolu müəyyən etməliyik.

Fondazione Salvemini beynəlxalq təhsil proqramının Cenevrə şöbəsinin müdiri Roberto Bonininin "Beynəlxalq tələbə mobilliyi və qloballaşan dünyada universal ali təhsil", Pakistan Milli Müdafiə Universitetinin beynəlxalq əlaqələr kafedrasının müdiri Məhəmməd Xanın "XXI əsrdə qloballaşma proseslərinə yeni metodoloji yanaşmalar", hesablamariyaziyyat kafedrasının müdiri Qalina Mehdiyevanın "Qloballaşma şəraitində cəmiyyətin inkişafında gənclərin rolu", Qara Dəniz Hövzəsi Universitetləri Şəbəkəsinin müdiri, rumıniyalı professor Eden Mamutun "Kütləvi açıq onlayn kurslar virtual təhsildə yeni yanaşma kimi", AMEA-nın müxbir üzvü, BDU-nun faydalı qazıntılar kafedrasının müdiri Vasif Babazadənin "Müasir dünyada əxlaqi dəyərlərin və əqidənin virtual sivilizasiyası. Azərbaycan: keçmişi, indisi və gələcəyi", Beynəlxalq ümumi hüquq kafedrasının müdiri Rüstəm Məmmədovun "Qlobal hüquq qaydası universitetdən başlayır" mövzularında məruzələri maraqla qarşılanıb.

Məruzələrdə vurğulanıb ki, müasir dünyada insanların düşüncə tərzi auditoriya ilə virtual universitet arasındakı münasibətlərə uyğun olaraq dəyişir. Azərbaycan dövləti, hökuməti və buna müvafiq olaraq gəncliyi də bu proseslərdən nəinki kənar qalmamış, eyni zamanda, onların fəal iştirakçısına çevrilib.

"Dəyirmi masa"nın üçüncü bölmə iclasına Rusiya İctimai Elmlər Akademiyasının akademiki, Milli Tədqiqat Universitetinin şərqşünaslıq şöbəsinin müdiri Aleksey Maslov moderatorluq edib. Bölmə iclası "Nəsillərin qarşılıqlı münasibətlərinin problemləri və perspektivləri" mövzusuna həsr olunub. İclasda Gürcüstan Milli Elmlər Akademiyasının ictimai elmlər şöbəsinin akademik katibi Roin Metreveli "Qloballaşmanın perspektivləri və Qafqaz regionu", sosial və pedaqoji psixologiya kafedrasının müdiri, professor Kamilə Əliyeva "Multikulturalizm və mədəni özünüdərk", Qazaxıstanın "Nur Otan" Milli Demokrat Partiyasının təhlil, proqnoz və sosial təşəbbüslər mərkəzinin rəhbəri Kazbek Kazkenov "XXI əsr: çağırışlar, yoxlamalar, istiqamətlər", Rusiya Federasiyasının Rəssamlıq Akademiyasının akademiki Yuri Borev "Qloballaşma və incəsənət", Macarıstanın Dünya İqtisadiyyatı İnstitutunun professoru Andras İnotai "Qloballaşma və onun siyasətə, iqtisadiyyata və cəmiyyətə təsiri", T.Şevçenko adına Kiyev Milli Universitetinin Beynəlxalq Əlaqələr İnstitutunun direktoru, professor Valeri Kopeyka "Distant təhsil Ukraynada "ağıllı" cəmiyyətin formalaşması amili kimi", professor Şahlar Əsgərov "Dayanıqlı insan inkişafı", Kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, professor Kamil Səlimov "Varislik gələcək nəsillərin inkişafını müəyyənləşdirən amillərdən biri kimi", AMEA-nın müxbir üzvü, BDU-nun psixologiya kafedrasının müdiri Bəxtiyar Əliyev "Tranzitar cəmiyyətdə nəsillərarası münasibətlər" mövzusunda məruzələr ediblər.

Çıxışlarda regional problemlərin, xüsusən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gənc nəslin inkişafına, qloballaşma proseslərinə mənfi təsiri pislənmiş və bu cür təcavüzlərə son qoyulması tələb olunub.

İclasda, həmçinin İordaniya-Azərbaycan Cəmiyyəti adından xanım Emili Nofa və başqaları da çıxış edərək, belə bir mötəbər tədbiri yüksək səviyyədə təşkil etdiyinə görə Azərbaycan dövlətinin başçısına minnətdarlıq ediblər.

## Transmilli Cinayətkarlıq üzrə magistratura yaradılacaq

Oktyabrın 8-də rektor, akademik Abel Məhərrəmov Maks Plank adına Xarici və Beynəlxalq Cinayət Hüququ üzrə Fraybur İnstitutunun (Almaniya) direktoru Hans Albrexti qəbul edib. Universitet haqqında məlumat verən akademik Abel Məhərrəmov BDU-nun yaranma və inkişaf tarixindən, bu təhsil ocağının beynəlxalq əlaqələrindən, əməkdaşlıq etdiyi aparıcı universitetlərdən, tanınmış assosiyasiyalar və qurumlarla əlaqələrindən, beynəlxalq qrant layihələrində iştirakından danışıb.

Qeyd edək ki, Hans Albrext rektor Abel Məhərrəmovla görüşdən əvvəl BDU-nun Hüquq fakültəsinin müəllim və tələbələrinə mühazirə oxuyub, verilən suallara ətraflı cavab verib. Qonaq akademik Abel Məhərrəmovla söhbətdə BDU ilə əməkdaşlıq qurulmasında maraqlı olduğunu bildirib.

Akademik Abel Məhərrəmov BDU-nun Maks Plank adına Xarici və Beynəlxalq Cinayət Hüququ üzrə Fraybur İnstitutu ilə əməkdaşlıqda maraqlı olduğunu qeyd edib. Görüşün nəticəsi olaraq, qərara alınıb ki, gələn il BDU-da Transmilli Cinayətkarlıq üzrə magistratura yaradılacaq, universitetin tələbələri və gənc alimləri Maks Plank adına Xarici və Beynəlxalq Cinayət Hüququ üzrə Fraybur İnstitutunun doktoranturasına göndəriləcək.

# Səfir Maya Xristova BDU-da

Oktyabrın 8-də Bolqarıstan Respublikasının ölkəmizdəki səlahiyyətli və fövqəladə səfiri Maya Xristova rektor Abel Məhərrəmovla görüşüb. Diplomatik korpusun rəhbəri, Bolqarıstan universitetləri ilə BDU arasında əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu bildirib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb. Səfir universitetlə yaxından tanış olmaq məqsədilə tədris və elmi-tədqiqat laboratoriyalarında olub, Heydər Əliyev Muzeyinə və Tədris Elektron Mərkəzinə baş çəkib.

# Türkiyə və Koreya universitetləri ilə müqavilə imzalanıb

Oktyabrın 6-da Türkiyə Cümhuriyyətinin Giresun Universitetinin rektoru, professor Aygün Attar və Koreya Respublikasının Hankuk Xarici Dillər Universitetinin rektoru Çul Park Bakı Dövlət Universitetində olublar. Qonaqları qəbul edən rektor, akademik Abel Məhərrəmov hər iki universitetin rektorları ilə keçirdiyi görüşləri xatırladıb və həmin danışıqların nəticəsi olaraq bu gün imzalanacaq əməkdaşlıq müqaviləsinin əhəmiyyətini vurğulayıb. Rektorlar - Aygün Attar və Çul Park rektor Abel Məhərrəmovla keçirdikləri görüşləri səmərəli hesab edib və bu müqavilənin universitetlərarası əməkdaşlığın daha da genişləndirilməsinə töhfə verəcəyinə əminliklərini ifadə ediblər.

Sonra hər iki universitetlə ayrı-ayrılıqda əməkdaşlıq müqaviləsi imzalanıb. İmzalanan müqavilə tələbə, tədqiqatçı və doktorantların mübadiləsini, professor və müəllim heyətinin elmi sahədə ixtisaslarının artırılmasına qarşılıqlı yardımı, qabaqcıl inkişaf metodları sahəsində təcrübə mübadiləsini, ikitərəfli birgə simpozium, seminar və konfrans təşkilini və qarşılıqlı maraq doğuran layihə və proqramlarda tərəflərin birgə iştirakını nəzərdə tutur. İmzalanma mərasimindən sonra çıxış edən rektorlar - Abel Məhərrəmov, Aygün Attar və Çul Park müqavilənin işlək olacağına, yaxın vaxtlarda səmərə verəcəyinə inandıqlarını qeyd ediblər.

## Futbol komandaları arasında açılış mərasimi keçirilib

*Oktyabrın 15-də Yeni Azərbaycan Partiyasının yaranmasının 20 illiyi ilə əlaqədar olaraq YAP Yasamal rayonu ərazi ilk partiya təşkilatlarının futbol komandaları arasında açılış mərasimi keçirilib.*

Qonaqları və tədbir iştirakçılarını salamlayan rektor, akademik Abel Məhərrəmov ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən danışıb, ölkə həyatında - siyasətində, iqtisadiyyatında, elm və təhsilində, digər sahələrdə həyata keçirdiyi islahatlardan, layihələrdən bəhs edib. "Xoşbəxt o xalqdır ki, onun ümummilli lideri var, xalq o vaxt daha da xoşbəxtdir ki, həmin siyasi kurs ölkədə uğurla davam etdirilir" deyən rektor Azərbaycanın bütün nailiyyətlərinin bu böyük şəxsiyyətin adı ilə bağlı olduğunu vurğulayıb. Akademik ulu öndərin elmin, təhsilin inkişafına, alimlərin sosial vəziyyətinin daha da yaxşılaşmasına hər zaman böyük diqqət və qayğı ilə yanaşdığını, həmin siyasi kursun bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini də diqqətə çatdırıb. Eyni zamanda ölkəmizdə idmana göstərilən xüsusi dövlət qayğısından da söz açıb.

Rektorun çıxışından o da məlum olub ki, mübarizə 12 komanda arasında 3 qrupda davam edəcək. 1-ci yerə çıxan komandaya 1200, 2-ci yerinə qalibinə 900, 3-cü yerin qalibinə isə 600 manat pul mükafatı və hədiyyələr təqdim ediləcək. Sonra Bakı Dövlət Universiteti və Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri arasında oyun başlayıb və 1:0 hesabı ilə BDU komandasının xeyrinə başa çatıb.

## Hankuk Xarici Dillər Universitetinin rektoru ilə görüş

Oktyabrın 4-də Koreya Respublikasının Hankuk Xarici Dillər Universitetinin rektoru, ispan ədəbiyyatı üzrə alim Çul Park və bu ali təhsil ocağının xarici əlaqələr üzrə dekanı, xarici dillər fakültəsinin professoru Tae Yeonb Canq Bakı Dövlət Universitetində olublar.

Artıq 2007-ci ildən universitetdə Koreya dili və ədəbiyyatının tədris olunduğunu diqqətə çatdıran rektor Abel Məhərrəmov həmin ixtisas üzrə 38 tələbənin təhsil aldığını deyib, universitetdə yaradılmış Azərbaycan-Koreya İnformasiya Təminatı Mərkəzinin iki ölkə arasındakı dostluq və əməkdaşlığın inkişafında rolundan danışıb, tədqiqatçı və doktorantların mübadiləsinin, professor və müəllim heyətinin elmi sahədə ixtisaslarının artırılmasına qarşılıqlı yardımın, seminar və konfransların təşkilinin maraq doğuran layihə və proqramlarda tərəflərin birgə iştirakının vacibliyini vurğulayıb.

Hankuk Xarici Dillər Universitetinin rektoru Çul Park ölkələrimiz arasındakı elm, təhsil əlaqələrinin daha da genişlənəcəyinə əminliyini bildirib. Çul Park, həmçinin rəhbərlik etdiyi ali təhsil ocağının Mərkəzi Asiyada ilk olaraq Azərbaycan-türk dillərinin tədrisi kafedrasının fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Qonaq iki ali təhsil ocağı arasında tələbə-müəllim mübadiləsində maraqlı olduqlarını da vurğulayıb.

# Rəhim Rəhimli, yoxsa Rəhim Hüseynov?

Bakı Dövlət Universitetində dünya ölkələrinin çoxunda tanınan bir alim işləyirdi. Azərbaycan astrofizika elminin təməlini qoyanlardan birincisi, həqiqətən böyük ziyalı, təvazökar insan idi Rəhim müəllim. AMEA-nın müxbir üzvü, professor, neçə-neçə dəyərli kitabın müəllifi, elmi kəşflərindən dünya rəsədxanalarında ehtiramla istifadə olunan, onlarla alim yetişdirən, 50 ilə yaxın universitet auitoriyalarında mühazirə oxuyan Rəhim Hüseynov bu yaxınlarda dünyasını dəyişdi. Görəsən Azərbaycanda nə qədər adam bildi bu müdhiş xəbəri? Küçədə soruşsan, neçə nəfər professor Rəhim Hüseynovu tanıyar? Bəs Rəhim Rəhimlini, Cəmiləni, Aygün Kazımovanı nə qədər tanıyırlar? Hansısa "xalq artisti"nin barmağına tikan batanda, bacısı qızı avtomobil qəzasına düşəndə bütün respublika xəbərdar olur, "bir azdan" ultimatiumu "ürəkləri titrədir",ancaq bu boyda alim,-dünya şöhrətli professor həyatdan köçdü, heç kəs bilmədi. ***Bəs "alim öldü, aləm öldü" deyirdilər, nə oldu? Aləm öldümü? Mən aləm deyəndə laqeydliyə adət etmişləri nəzərdə tuturam.*** Cəmiyyətdə əmələ gələn biganəliyi nəzərdə tuturam. Əgər problem yalnız tanınmayan Rəhim müəllimlə, yaxud məhşur Rəhim Rəhimli ilə bitsəydi, bu məsələni heç açıb-ağartmazdıq. Ancaq elə yalnız bizim universitetdə onlarla, bəlkə də yüzlərlə çox dəyərli alimlər var ki, onların ictimaiyyət tərəfindən tanınmaması, hesab edirəm ki, hamımızın günahıdır. Bir dəfə həmin məhşur müğənnilərdən birinin prodüseri ilə söhbət edirdim. Soruşdum ki, niyə yarım saatlıq toy aparmağa 4-5 min pul tələb edirsiniz? Bu hansı meyarla ölçülür? Cavab verdi ki, onun əziyyətinə görə: "Bir mahnıya görə bilirsiniz nə qədər məşq edir, oranjiman etdirir, bütün günü toya hazırlaşır,zəhmət çəkir?"

Düşündüm,görəsən həmin müğənni də, bizim alimlər kimi, 10 il orta məktəbdə, 5 il universitetdə, 3 il aspiranturada, sonra da dissertasiya işlərinə görə illərlə kitabxanalarda (özü də həmidan artıq, həmidan yaxşı) oxuyub, indi də yarım saatlıq yox, saat yarımlıq mühazirədən əvvəl günlərlə, saatlarla kitabxanalarda hazırlaşsaydı, nə qədər pul istəyərdi? Nəzərə alsaq ki, həmin müğənni bizim alimlərdən fərqli olaraq, bir dəfə oranjiman etdirib yazdırdığı mahnını dəfələrlə fonoqramma kimi oxuda bilir,alim isə 10 illərlə hər dəfə yeni, müasir bilgilərlə zənginləşdirilmiş dərs hazırlayır və onu "canlı" "ifa edir".

Əslində, mənim artistlərin qazancı və şöhrəti ilə işim yoxdur. Halal xoşları olsun. Bilirəm ki, bütün dünyada şou-biznez əhli böyük pullar qazanıb tanınmış olurlar.Ancaq onu da bilirəm ki, alimin,müəllimin onlara uyğun hörməti, qazancı var. Mən sevimli aktyorumuz Yaşar Nuri haqda bir yazı hazırlamaq üçün internetdə sorğu verdim. Demə, Türkiyədə elə bu ad-soyadda bir alim var, həmən Yaşar Nuri haqda o qədər məlumat çıxdı ki, bizim alimləri şöhrəti ilə kölgədə qoyan aktyorumuz onun kölgəsində qaldı. Demə, bu alimi həftədə bir yol TV-lərə çağırıb fikirlərini dinləyir, xalqın suallarına cavab istəyirlər, həm alimin hörmətini, həm də camaatın intellekt səviyyəsini təmin edirlər. Özü də tək Yaşar Nuri ilə iş bitmir, bütün səviyyəli alimlərə münasibət təxminən belədir.

*Burda yadıma hörmətli dostumuz, professor Ağavəli İbrahimovun başına gələn bir əhvalat düşdü.* Hansısa bayramda bir avtobus tanınmış adam sərhəd bölgəsinə əsgərlərlə görüşə gedib. Ağavəli müəllim deyir ki,hərbi hissəyə yaxınlaşanda özümü səliqəyə saldım, qalstukumu düzəltdim ki, indi uşaqlar məni görən kimi dövrəyə alacaqlar, şəkil çəkdirəcəklər və s. Zarafat deyil, onlar məni kimi dünyanın tanıdığı alimi, 20 il BDU-nun Biologiya fakültəsinin dekanı olmuş əməkdar müəllimi, 30 ilin professorunu harda yaxından görüblər? Bu həvəslə avtobusdan lap əvvəldə düşdüm, əsgərlər qabağıma qaçıb ilk sualları verənə qədər fərəhdən uçurdum: "Dayı, deyirlər Rəqsanə də sizinlə gəlib, düzdür?".

Məşədi İbadın sözü olmasın, mənə "dayı" deməkləri az imiş kimi, Rəqsanəni əhatəyə aldılar, şəkil çəkdirən kim, avtoqraf alan kim, biz heç yada düşmədik...

***Nə isə... Rəhim Rəhimlini, yoxsa Rəhim Hüseynovu daha yaxşı tanımalıyıq? Bəlkə mən səhv edirəm?...***

**Fikrət Şiriyev**
***Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent***

# Unudulmaz alim

Elm və təhsilin inkişafı naminə ömür boyu çalışan, yaxşı ailə başçısı, etibarlı və səmimi dost, gözəl insan, savadlı və qayğıkeş bir müəllim olan Ramiz Kərəməliyev artıq aramızda yoxdur. Amma yetirmələri, iş yoldaşları, yaxınları, onu tanıyanlar unudulmaz alimimizi hər zaman qəlbələrində yaşadacaqlar.

***O, 1941-ci ilin aprel ayında Qusar rayonunun Böyük Muruq kəndində doğulub.*** Orta məktəbi gümüş medalla bitirdikdən sonra o, 1959-cu ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinə daxil olub və 1964-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirib. Dövlət komissiyasının qərarı ilə universitetdə gənc mütəxəssis kimi saxlanıdıqdan sonra yeni elmi istiqamətlərdən biri olan kvant elektronikası üzrə kadr hazırlamaq məqsədilə Belorusiya Elmlər



Akademiyasının Fizika İnstitutunun aspiranturasına göndərilib. 1970-ci ildə Belorusiya AE-nin Fizika İnstitutunun Elmi Şurasında "Mürəkkəb energetik strukturlu sistemlərdə işığın generasiyası" mövzusunda fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edib.

R.Kərəməliyev 1969-cu ildə Bakı Dövlət Universitetində assistent vəzifəsində əmək fəaliyyətinə başlayıb. O, 1982-ci ildən Ümumi fizika kafedrasının dosenti vəzifəsində işləyib.

1974-1975-ci illərdə İtaliyanın Florensiya Universitetində elmi ezamiyyətdə olduğu müddətdə apardığı elmi işlərin nəticələri xarici ölkələrin jurnallarında dərc olunub. O, 60-dan çox elmi məqalənin və "Kvant elektronikasının əsasları" kitabının müəlliflərindən biridir. Vyetnam Respublikasından BDU-ya göndərilmiş aspirant Dao Suan Xoy 1985-ci ildə R.Kərəməliyevin rəhbərliyi ilə kvant elektronikası ixtisası üzrə namizədlik dissertasiyası müdafiə edib.

Ümumi fizika kurslarından mühazirələr oxuyan Ramiz müəllim fizika fakültəsində həmçinin "Kvant elektronikası", "Optik holoqrafiya" və "Optik rabitə" ixtisas kurslarını da deyib. Tanınmış pedaqoq 1972-1973-cü illərdə Avropa Dilləri Universitetinin ikiillik ingilis dili kursunu da uğurla bitirib.

R.Kərəməliyev fizika fakültəsinin Elmi-Metodiki Şurasının və ekspert komissiyasının üzvü olub. Dəfələrlə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında ekspert kimi çalışan Ramiz müəllimin abituriyentlər üçün yazdığı "Fizikadan testlər" kitabı geniş yayılıb, məktəblilərin və həmçinin tələbələrin fizika fənni üzrə olimpiadalarında alim münsiflər heyətinin üzvü kimi iştirak edib.

Ramiz Kərəməliyev sentyabrın 5-də Bakı şəhərində dünyasını dəyişib və Qusar şəhərində dəfn olunub.

***Allah ona rəhmət eləsin.***

# "İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏ"

*Sosial elmlər və psixologiya fakültəsində "İnsan alverinə qarşı mübarizə" mövzusunda maarifləndirici seminar keçirilib.* Tədbir fakültə dekanı professor Hikmət Əlizadə və fakültə tələbə elmi cəmiyyətinin sədri Fərhad Vahidzadənin rəhbərliyi və təşkilatçılığı ilə baş tutub. Seminarı Sosial iş ixtisası üzrə II kurs tələbəsi Lamiyə Rzayeva aparıb. İki hissədən ibarət olan tədbirdə daha sonra tələbələrə maarifləndirici qısametrajlı film təqdim edilib.



Seminarda QHT nümayəndələri: "Beynəlxalq Miqrasiya Təşkilatı"nın Azərbaycan üzrə koordinatoru Səltənət Məmmədov və "Savadlı cəmiyyət" ictimai birliyinin sədri Fuad Dərgahlı da iştirak ediblər. Tədbirdə tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb və xüsusi hazırlanmış bukletlər təqdim olunub.

# İndoneziyanın ölkəmizdəki səfiri BDU-da olub

Bakı Dövlət Universitetinin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru İradə Əliyeva, Elm və innovasiyalar üzrə prorektoru Aydın Kazımzadə, Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Sani Hacıyev və Xarici tələbələrlə iş üzrə dekan Gülheyran Rəhimova İndoneziyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Prayono Atiyanto, səfirin müşaviri Aqus Trimartono, İndoneziya Xarici işlər nazirliyinin təhsil və treyninq üzrə mərkəzinin rəhbəri Hazairin Pohan, Təhsil və treyninq üzrə mərkəzin Planlaşdırma və Dəyərləndirmə məsələləri üzrə rəhbər müavini Yudi Alamin və İndoneziya Xarici işlər nazirliyinin əməkdaşı İbrahim Çaraka Debe ilə görüşüblər.

Görüş zamanı tədris və tədqiqatlar sahəsində əməkdaşlıq işləri müzakirə olunub, birgə layihələrin və elmi əməkdaşlığın inkişafı üçün universitetlərarası əməkdaşlıq proqramlarının hazırlanması müzakirə edilib. Səfir İndoneziyanın Xarici İşlər Naziliyi tərəfindən təşkil edilmiş Təhsil və Treyninq mərkəzi barədə informasiya verib. Bu mərkəzdən BDU tələbələrinin də gələcəkdə yararlana biləcəyini qeyd edib.

Qonaqlar BDU ilə yaxından tanış olub, elmi-tədqiqat laboratoriyalarına baxış keçirib, yüksək təəssüratla ayrılıblar.

# XI Bakı Yapon dili natiqlik müsabiqəsi keçirilib

Oktyabrın 7-də 11-ci Bakı Yapon dili natiqlik müsabiqəsi keçirilib. Müsabiqə BDU-nun Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrası ilə birgə Azərbaycandakı Yaponiya səfirliyi, Bakıdakı Yapon cəmiyyəti və Yaponiya Fondunun dəstəyi ilə təşkil edilib. Müsabiqədə Bakı Dövlət Universitetindən 9, 7 tələbə isə ADU-dan iştirak edib. I və II yerlərə BDU tələbələri, III yerə isə ADU tələbəsi layiq görülüb. Yaponiya səfirliyinin xüsusi hədiyyəsini ADU-nun tələbəsi, münsiflər heyətinin xüsusi hədiyyəsini isə BDU-nun tələbəsi alıb. Yarışmanın qalibi BDU-nun Şərqşünaslıq fakültəsinin 3-cü kurs tələbəsi Muradli Aydan olub. Qalib Moskvada MDB ölkələri arasında keçirilən Yapon dili natiqlik müsabiqəsində iştirak etmək hüququnu qazanıb.

# Sərgi keçirilib

Oktyabrın 4-də BDU-nun Elmi kitabxanasında da dahi Azərbaycan şairi Nizami Gəncəvinin yubileyinə həsr olunmuş tədbirlər keçirilir. Yubileylə əlaqədar kartotekada "Nizami Gəncəvi - 870" rubrikası açılıb və orada Azərbaycanda və dünyada çıxan müxtəlif tipli materiallar əks olunub. Yubiley günlərində kitabxananın foyesində böyük sərgi təşkil edilib. Sərgidə şairin Azərbaycan, rus, fars, ərəb və s. dillərdə çap olunmuş əsərləri, Nizami yaradıcılığı haqqında əsərlər, Nizami yaradıcılığına çəkilmiş miniatür rəsm əsərləri, Nizami əsərlərinin dilinə həsr edilmiş lüğətlər və s. nümayiş etdirilib.Sərgini, dünyanın müxtəlif ölkələrindən gəlmiş qonaqlar da ziyarət ediblər.

## 5 Oktyabr-Beynəlxalq Müəllim günüdür

# Sevimli müəllimim

***Bütün dünyada olduğu kimi ölkəmizdə də çoxminli müəllim ordusu üçün 5 oktyabr əziz gündür. Dünyanın 100-dən çox ölkəsində həmin gün müəllimlər peşə bayramını qeyd edir. Bir çox sənət və peşə sahiblərindən fərqli olaraq müəllimlərin peşə bayramlarının dünya miqyasında qeyd olunması müəllimlik sənətinin yüksəkdə durduğunu,müəllimlərin bütün millət və xalqlar arasında böyük hörmətə və nüfuza malik olduqlarını sübut edir.***

Ümummilli lider Heydər Əliyev "Mən müəllimlikdən yüksək peşə görmədim" demişdir. Həqiqətən də, müəllim olmaq özündə insanlığı ehtiva edir. Bir növ məsuliyyət, bir növ isə fədakarlıqdır müəllim olmaq. Dövlətçiliyin, xalqın keşiyində dayanmaqdır. Müəyyən zaman çərçivəsində rəhbərlikdir millətinin gələcək nəslinə. Müəllimlik valideyn olmaqdır həm də. Kimliyindən, iriqindən, milliyyətindən asılı olmayaraq, hər kəsə valideyn qayğısı göstərməkdir. Müəllim olmaq zənginlikdir, ürəyindəki sevgini bərabər paylamaqdır. Müəllim olmaq səmimiyyətdir, etibardır, inamdır. Peşəyə sadiqliq, bağlılıq və heç bir vəchlə satın alınmayacaq qədər dəyərdir.

Təhsil aldığım ilk gündən bu yana 70-dən çox müəllimim olub və hələ də bu say artmaqdadır. Və hər biri əməksevərliyi, peşəsinə məhəbbəti, elmə olan bağlılığı ilə bizə elm, təhsil, tərbiyə aşılayıb, Vətənə, millətə, milli mənsubiyyətimizə bağlılığı təbliğ edib. Bizlərin şəxsiyyət kimi formalaşmağımız üçün əllərindən gələni əsirgəməyiblər.

Mənə 2 dəfə qələm tutmağı öyrədən müəllim tanıdım. İlkində 3 yaşım, ikincisində 20 yaşım vardı. Birinci müəllimim babam olub. Peşəsi müəllim olmasa da, əlifbanı o öyrədib mənə. İkincisi dosent Vüqar Ziferoğlu. Jurnalist keyfiyyətləri aşılamaqla, min bir zəhmətlə əlimdə qələm tutmağı öyrətdi.

Vuqar Ziferoğlu - jurnalistika fakültəsinin peşəkarlarından olan, tələbələrini çox sevən, onlara elm öyrətməklə yanaşı doğru yol göstərməyi də özünə borc bilən, "vaxtım yoxdur" kəlməsini bilməyən qayğıkeş insan! Mənim ən əziz müəllimim, peşə bayramınız mübarək! Arzu edirəm, bütün işlərinizdə uğur, xoş nailiyyətlər həmişə Sizinlə olsun. Peşəkar jurnalist müəllimim!

***Müəllim gününüz mübarək!***

***Nərmin Əsədova,***
***Jurnalistika fakültəsinin magistrantı***

# Akademik Vasim Məmmədəliyev - 70



***Azərbaycanın az alimləri həm elmi ictimaiyyət və xalq arasında, həm də Vətənimizin hüdudlarından kənarda filologiya elmləri doktoru, professor Vasim Məmmədəli oğlu Məmmədəliyev qədər geniş şöhrət qazanmışlar. O, Bakı Dövlət Universiteti ilahiyyat fakültəsinin dekanı, Ərəb filologiyası kafedrasının müdiri, Qafqaz Müsəlmanları İdarəsi nəzdində Elmi-Dini Şuranın sədri, AAK Rəyasət Heyətinin üzvü, Azərbaycanın və Dağıstan Muxtar Respublikasının əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, İraq Elmlər Akademiyasının, Suriya Quran Elmləri və Ərəb Filologiyası Akademiyasının və Misir Ərəb Dili Akademiyasının müxbir üzvü, İslam Konfransı Təşkilatının Müsəlman Hüququ Akademiyasının akademiki və Azərbaycanın orada təmsilçisi, İranın Beynəlxalq Əhli Beyt Assosiasiyası və Türkiyənin Elmi Araşdırmalar Vəqfinin üzvüdür. Elm və təhsildə səmərəli fəaliyyətinə görə ”Şöhrət” və ”Şərəf” ordenləri, ”Yusif Məmmədəliyev” medalı ilə təltif edilmiş, Prezident təqaüdünə layiq görülmüşdür.***

Vasim Məmmədəliyev 27 avqust 1942-ci ildə Bakıda doğulmuşdur. 1959-cu ildə orta məktəbi bitirib BDU-nun şərqşünaslıq fakültəsinin ərəb filologiyası şöbəsinə daxil olmuş, 1964-cü ildə təhsilini Tbilisi Dövlət Universitetində aspiranturada davam etdirmişdir. Vasim müəllim 26 yaşında Tbilisidə ”Müasir ərəb, Azərbaycan ədəbi dilində və İraq dialektində felin zaman formalarının müqayisəli tipoloji təhlili” mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və 32 yaşında keçmiş SSRİ miqyasında ərəbşünaslıq sahəsində ən gənc elmlər doktoru olmuşdur. Onun bu ”rekord”unu hələlik heç kəs təkrar edə bilməmişdir.

İndiyədək alimin 30-dan çox kitabı nəşr olunmuşdur. Onlardan ”Ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları”, ”Bəsrə qrammatika məktəbi”, ”Kufə qrammatika məktəbi”, ”Ərəb dilçiliyi”, ”Quran və elm” və s. göstərmək olar. Mən iki monoqrafiya barəsində daha ətraflı fikir söyləmək istəyirəm.

## ”Ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları” əsəri

Bu əsər ərəb dilçiliyi sahəsində, ümumiyyətlə, irəli atılmış bir addım idi. Ərəb dilində zaman, şəxs və şəkil kateqoriyaları predikativliyin qrammatik özəyi kimi eyni bir söz formasında təzahür edir və feli cümlənin əsasını təşkil edir. Məhz bu baxımdan müəllif həmin üç kateqoriyanı əlaqəli surətdə öyrənməyi vacib bilmişdir.

Əsərdə bəzi faktlar müxtəlif sami dilləri ilə müqayisəli şəkildə araşdırılmış, yeri gəldikcə klassik ərəb dilinin materiallarına müraciət olunmuş, həmçinin Azərbaycan, rus, ingilis, fars, tacik və s. dillərin faktlarından müqayisəli şəkildə istifadə edilmişdir. Eyni zamanda ərəb dilçilik elminin təşəkkülü barəsində yeni mülahizələr irəli sürülmüş, müasir dilçiliyin bir sıra cərəyanlarının mövzu ətrafında konsepsiyaları hərtərəfli təhlil edilmişdir.

Ümumiyyətlə götürüldükdə Vasim müəllimin haqqında danışdığımız monoqrafiyası nəinki ərəb dilçiliyinin ən ümdə məsələlərinin kamil tədqiqi, həmçinin ümumi dilçilik elminin inkişafına təkan verən mühüm bir hadisə kimi səciyyələnməlidir. Ona görə də 1978-ci ildə rus dilində nəşr olunan bu kitab Vasim müəllimi SSRİ şərqşünaslığında aparıcı alimlər cərgəsinə çıxardı, şərqşünaslıq mərkəzlərində namizədlik və doktorluq dissertasiyalarına onun tez-tez opponentlik etməsinə səbəb oldu.

## “Ərəb dilçiliyi” monoqrafiyası

Bu monoqrafiya, demək olar ki, Vasim müəllimin dünya şərqşünaslığına layiqli töhfəsidir. Çünki ərəb qrammatika elminin təşəkkülü, onun məktəbləri haqqında 10 əsrdən çox müddətdə müxtəlif səpkili əsərlər yazılsa da, müasir dilçilik səviyyəsində heç bir tədqiqat işi bu möhtəşəm problemin həllini axıra çatdıra bilməmişdir.

Amma Vasim müəllimin özünün etiraf etdiyinə görə, nə Avropa, nə də sovet şərqşünaslığında ərəb qrammatika məktəblərinin istər ayrı-ayrılıqda, istərsə də bütövlükdə bir sistem kimi öyrənilməsinə, bu sistemin nəzəri və metodoloji əsaslarının tam şəkildə müəyyənləşdirilməsinə, onların başqa dilçilik təlimləri ilə oxşar və fərqli cəhətlərinin ətraflı şərhinə həsr edilmiş monoqrafik tədqiqat və ya dərslik mövcud olmamışdır.

Ərəb dilçiliyi tarixində beş qrammatika məktəbi məşhurdur. Bunlar Bəsrə, Kufə, Bağdad, Əndəlis və Misir qrammatika məktəbləridir. Əsərdə onların hər birinin meydana gəlib formalaşması, görkəmli nümayəndələrinin həyat və yaradıcılığı, dilçiliyə gətirdikləri yeniliklər və s. dərin elmi təhlil əsasında qələmə alınmışdır.

Vasim müəllimin haqqında danışdığımız kitabı ərəb dilçiliyinin yaranması dövründən bu günümüzə qədər keçdiyi mürəkkəb yolun geniş ponoramasını əks etdirir. Burada qoyulan müxtəlif səpkili məsələlərin dərindən öyrənilməsi müəllifin ümumi dilçilik sahəsində nəhəng bir şəxsiyyət olduğunu bir daha sübut edir. Əsərdə ayrı-ayrı məktəblərin əsas xüsusiyyətləri, mənbələri, nəzəri-metodoloji əsasları, terminologiyası, mübahisəli məsələləri və s. ətraflı şərh edilir. Ərəb yazısının və leksikoqrafiyasının inkişaf mərhələləri xüsusi diqqətlə izlənilir.

Ərəb dilçiliyi sahəsində fəaliyyət göstərmiş Azərbaycan alimlərinə ayrıca oçerkin həsr olunması elmimiz üçün kitabın dəyərini daha da artırır.

Vasim müəllim ”Ərəb dilçiliyi”ndən savayı heç nə yazmasaydı, yenə də dünyanın ən görkəmli dilçiləri ilə bir cərgədə duracaqdı. Lakin o usanmaq bilmir, humanitar elmlərin müxtəlif sahələrinə dair dörd yüzə yaxın elmi, üç yüzdən çox elmi-publisistik məqalə və müsahibənin müəllifi olduğu halda, yeni-yeni araşdırmalar üzərində işləyir.

## ”Qurani-Kərim”in Azərbaycan dilinə tərcüməsi

Bu tərcümə Vasim müəllimin sonrakı elmi yaradıcılığına böyük təsir göstərmiş, əslində onun yeni bir istiqamətdə fəaliyyətinin əsasını qoymuşdur. Əgər həmin vaxtadək o, dilçi ərəbşünas kimi sabiq sovet məkanında və onun hüdudlarından kənarda özünə ad qazanmışdısa, bundan sonra ilahiyyatçı alim kimi də şöhrətlənməyə başladı.

Qeyd etməliyəm ki, ”Qurani-Kərim”in əcnəbi dillərə çevrilməsi heç də yeni bir iş deyildi. Bu sahədə ilk addımlar hələ XI əsrdə türklər və farslar tərəfindən atılmışdı, hazırda türk və fars dillərində Quranın yüzdən çox tərcüməsi və təfsiri mövcuddur.

XII əsrdən etibarən ”Qurani-Kərim” latın, italyan, alman, fransız, ingilis, ispan, rus və s. dillərə dəfələrlə çevrilmişdir. Bu gün onların sayı otuzu ötmüşdür.

”Qurani-Kərim”in Azərbaycan dilinə tərcüməsinə orta əsrlərdən cəhd göstərilsə də, bu iş yalnız 1904-1906-cı illərdə Bakı qazısı Mir Məhəmməd Kərim ağa tərəfindən həyata keçirildi. Üç cilddən ibarət tərcümə-təfsirin işıq üzü görməsində xalqımızın böyük oğlu Hacı Zeynalabdin Tağıyevin xidmətini unutmaq olmaz.

1908-ci ildə Zaqafqaziya şeyxülislamı Məhəmməd Həsən Mövlazadə Şəkəvi Tbilisidə ”Qurani-Kərim”in ikicildlik tərcümə-təfsirini nəşr etdirdi.

Əvvəllər nisbətən örtülü şəkildə sitayiş olunan dinimiz yavaş-yavaş ictimai həyatımızın və mənəviyyatımızın aşkarda ayrılmaz komponentinə çevrilirdi. Belə bir şəraitdə xalqın ”Qurani-Kərim”in azərbaycancaya tərcüməsinə böyük ehtiyacı var idi. Lakin nadir nüsxələri əldə olan Mir Məhəmməd Kərim ağa və Mövlazadənin əsərləri bu vəzifəni yerinə yetirə bilmirdi. Çünki onların dili artıq müasir Azərbaycan oxucusu üçün çox qəliz və anlaşılmaz idi.

1991-ci ildə Vasim müəllimin akademik Ziya Bünyadovla birgə səyi nəticəsində ”Qurani-Kərim”in azərbaycanca tərcüməsi işıq üzü gördü.

”Qurani-Kərim” haqqında hələ az məlumatı olanlar belə bilirlər ki, bu Allah kəlamı çox bəlağətli, fəsahətli, müəmmalı bir dildə nazil olmuşdur. Peyğəmbərin dilindən söylənilən bir hədisdə onun zahiri və batini məzmunu olduğu bildirilir. Təsadüfi deyil ki, əsrlər boyu ensiklopedik biliklərə malik alimlər ”Qurani-Kərim”ə yüzlərlə şərhlər yazsalar da, indiyədək onun tam açılmamış ayələri qalmaqdadır.

Tərcümə işini çətinləşdirən başqa bir cəhət var. Belə ki, ”Qurani-Kərim”in nazil olduğu ərəb dili leksik fonduna görə dünyanın ən zəngin dillərindən biridir. Eyni zamanda bir məna bildirən onlarla, bəzən yüzlərlə sinonim sözlərlə yanaşı, bir sözün onlarla mənanı özündə ehtiva etməsi də adi hal kimi sayılır. ”Qurani-Kərim”də Cahiliyyə, yəni islama qədərki ərəb poeziyasında tez-tez təsadüf edilən yarımçıq cümlələrin və yalnız ana dilini dərindən bilən ərəblərin özlərinin anladığı eyhamların çoxluğu da mütərcimlər üçün problemlər yaradır. Ərəb cümlələrində söz sırasının Azərbaycan dilindəkindən köklü surətdə fərqlənməsi, təbeli mürəkkəb cümlələrdəki bir sıra bağlayıcıların ədəbi Azərbaycan dilinə yad olması, feli sifət, məsdər tərkiblərinin ərəb və Azərbaycan dillərində işlənməsinin bir-birinə uyğun gəlməməsi və s. ayələrin ardıcıllığına riayət olunmasına xələl gətirir, hər bir ayənin ayrılıqda anlaşılmasını qəlizləşdirir.

Mən Vasim müəllimin müqəddəs kitabımızı ana dilimizə çevirərkən bütün bunları aradan qaldırmaq üçün necə gərgin işlədiyinin şahidi olmuşam. O, onlarla ərəb, fars, türk dillərindəki təfsirləri ələk-vələk edərək, Allah kəlamını Azərbaycan oxucusuna mötərizədə verdiyi qısa şərhlərlə daha anlamlı, hərfi deyil, lakin ərəb mətninə daha uyğun şəkildə verməyə çalışmışdır. Belə böyük əməyin nəticəsidir ki, ”Qurani-Kərim”in azərbaycancaya qısa şərhli tərcüməsi Bakıdan başqa Ukrayna, Türkiyə, İran və Pakistanda da nəşr edilmişdir. Vasim müəllim hər yeni nəşrdən əvvəl bir daha mətn üzərində işləmiş və bəzi dəyişikliklər aparmışdır.

Vasim müəllimin tərcüməyə yazdığı ön söz ayrıca bir tədqiqat işidir. Əslində bu ön söz Azərbaycanda ilahiyyat və islamşünaslıq elminin yenidən dirçəlməsinə təkan vermişdir. O, külli miqdarda müxtəlif tarixi faktları əhatə etməklə, elmiliyi ilə bərabər öz bədiiliyi, söz düzümünün gözəlliyi ilə oxucunu heyran qoyur.

Vasim müəllim digər elm xadimlərindən bir cəhətlə fərqlənir ki, onu Azərbaycanın ən ucqar guşələrində belə tanıyır və sevirlər. Bu, onun ”Qurani-Kərim”i dilimizə çevirməsi və mərkəzi televiziya ilə apardığı ”Haqqın dərgahı” verilişi ilə bağlıdır.

## ”Haqqın dərgahı” verilişi

Vasim müəllimin ”Haqqın dərgahı” verilişinə başlaması ölkəmizdə böyük sensasiyaya səbəb oldu. Çünki yetmiş il yasaqlanmış dinimizi belə bir alim elmi şəkildə xalqımıza çatdırırdı. Vasim müəllim hər hansı bir dini ayin, mərasim və ya islamla bağlı hadisədən danışanda onu bugünkü reallıqla gözəl şəkildə əlaqələndirir, saflığa, paklığa çağırır, gənclərimizin yüksək mənəvi əsaslar üzərində tərbiyələnməsini təbliğ edir.

Respublikamızda son zamanlar mövhumat xarakterli ədəbiyyatın yayılmasının qarşısını almaq üçün hörmətli şeyximiz Hacı Allahşükür Paşazadənin təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Elmi-Dini Şuranın yaradılması çox böyük əhəmiyyətə malikdir. Bu şuraya görkəmli din xadimləri və alimlər daxildirlər. Təsadüfi deyil ki, belə bir sanballı şuraya məhz Vasim müəllim sədrlik edir.

Vasim müəllimin ərəb dilində sərbəst və gözəl danışması barədə çox yazılıb. Bu sahənin mütəxəssisi kimi mən də dəfələrlə şahid olmuşam ki, müxtəlif ölkələrdən gələn, adətən, bir-birindən fərqli məhəlli ləhcələrdə danışan ərəblər onunla ərəb ədəbi dilində ünsiyyətdə olarkən özlərini yığışdırırlar. Qeyri-ərəbin yanında doğma ana dilində səhvə yol verməkdən ehtiyat edirlər.

Vasim müəllim nəinki ədəbiyyatımızın, klassik poeziyamızın, eyni zamanda ərəb, fars şeirinin tanınmış araşdırıcılarından sayılır. O, təsəvvüfü incəliklərinə qədər öyrənmiş, Mövlanə Cəlaləddin Ruminin ”Məsnəvi”si haqqında, hətta İran və Türkiyə televiziyalarında dəfələrlə ətraflı çıxışlar etmişdir. Görkəmli alimimiz bu böyük əsərdən çox hissələri əzbər bilir.

Vasim müəllim Azərbaycan musiqisinin, xüsusilə də muğamlarımızın gözəl bilicisidir. O, dəfələrlə muğam gecələrini aparmış, respublikanın görkəmli xanəndə və müğənnilərinin yaradıcılıq görüşlərində bir mütəxəssis kimi çıxış etmişdir. Qeyd etməliyəm ki, Vasim müəllim həm də klassik Avropa musiqisinə dərindən bələddir.

Vasim müəllimin ömrünün əsas hissəsi Bakı Dövlət Universiteti ilə bağlıdır. Ona görə də Azərbaycanın bu ən qabaqcıl təhsil məbədgahını ata ocağı qədər sevir. O, 1959-1964-cü illərdə şərqşünaslıq fakültəsində oxumuş, 1964-1967-ci illərdə aspirant olmuş, 1968-ci ildə müəllimlikdən başlayıb, professor, kafedra müdiri və prorektor vəzifəsinə (1991-1992) qədər yüksəlmişdir. Vasim müəllim universitetimizdə yeganə şəxslərdəndir ki, üst-üstə indiyədək 30 ilə yaxın dekan vəzifəsində çalışır (şərqşünaslıqda: 1981-1991, ilahiyyatda 1993-cü ildən).

## İslam aləmində əldə etdiyi nailiyyətlər

Vasim müəllimin geniş mənada şərqşünas alim kimi elmi fəaliyyətinə qısa nəzər saldıqdan sonra onun Azərbaycanda və islam aləmində əldə etdiyi nailiyyətləri bir neçə kəlmə ilə yekunlaşdırmaq istəyirəm.

Əgər əllinci illərin sonundan başlayaraq, şərqşünaslıq aləmində ustadımız, mərhum professor Ələsgər Məmmədovun sayəsində Bakı praktik ərəb dili öyrədən ən məşhur mərkəzlərdən biri hesab edilirdisə, hal-hazırda paytaxtımızın ərəb dilçiliyinin tanınmış ocaqlarından birinə çevrilməsində sovet samişünaslarının lideri akademik G.V.Seretelinin nəzəri məktəbini keçmiş Vasim müəllimin əvəzedilməz xidməti olmuşdur. O, bu sahədə 41 elmlər namizədi və fəlsəfə doktoru, 3 elmlər doktoru yetirmişdir, özü isə Azərbaycan şərqşünaslarının öndəri kimi dünyanın müxtəlif ölkələrində: Rusiya, Gürcüstan, Polşa, Türkiyə, İran, İraq, Misir, Liviya, Səudiyyə Ərəbistanı, Suriya, BƏƏ, Küveyt, İndoneziya və s. ölkələrdə keçirilən elmi toplantılarda Vətənimizi ləyaqətlə təmsil edir. Ərəb dilçiliyi və ilahiyyat sahəsində nail olduğu elmi nəticələr ərəblərin özləri tərəfindən yüksək qiymətləndirilmiş, Vasim müəllim İraq, Suriya və Misirdə Elmlər Akademiyasına müxbir üzv seçilmişdir.

1994-cü ildə altmışa yaxın dövləti təmsil edən İslam Konfransı Təşkilatı nəzdindəki Müsəlman Hüququ Akademiyasının akademiki seçilməsi isə onun nüfuzunun artıq bütün müsəlman aləmində necə böyük olduğuna bir daha dəlalət edir. XVIII əsrin sonlarından etibarən formalaşmağa başlayan, XIX-XX əsrlərdə sürətlə inkişaf edən şərqşünaslıq elmində heç bir Azərbaycan alimi belə bir uca məqama çatmamışdır.

Məlumdur ki, dəqiq elmlər sahəsində ən böyük kəşflər alimlərin gənc yaşlarında olur. Humanitar elmlər sahəsində isə alimlər yaşa dolduqca daha da püxtələşir, geniş məlumat əldə edir və özlərinin şah əsərlərini ömürlərinin ahıl vaxtında yaradırlar. Mən inanıram ki, Vasim müəllim pərəstişkarlarını hələ neçə-neçə onilliklər boyu öz tədqiqatları ilə sevindirəcək, şərqşünaslıq elmini zənginləşdirəcəkdir.

***Elxan Əzizov***
***Əməkdar müəllim,***
***şərqşünaslıq fakültəsinin***
***dekanı, dosent***

Layihə

# "Yeni jurnalistlər nəsli" layihəsinin ilk təlimi keçirilib



"British Council", "AccessBank"ın birgə əməkdaşlığı, "Thomson Foundation" və Bakı Dövlət Universitetinin dəstəyi ilə həyata keçirilən "Yeni jurnalistlər nəsli" layihəsinin ilk tədris kursu olub.

1-5 oktyabr tarixlərində keçirilən təlimlərdə əsasən onlayn jurnalistika tədris edilib, bu sahədə olan yeniliklərdən ətraflı bəhs olunub. Təlim "Coventry Evening Telegraph" və "Birmingham Post" kimi mükafatlara layiq görülən, "Thomson Foundation"un məsləhətçisi və onlayn-redaktoru vəzifəsində işləyən Den Meyson tərəfindən aparılıb.

Universitetin yeni akt zalında baş tutan ilk təlim kursunda BDU-nun jurnalistika fakültəsindən müsabiqə nəticəsində qalib gəlmiş 20 nəfər tələbə iştirak edib. Praktik şəkildə keçirilən təlim günlərində bloqlar üzərində iş aparılıb, sayta xəbərə yazmaq, həmin xəbərə başlıq seçmək, xəbərə şəkillər çəkib onların sırasında ən uyğun olanları seçmək və yekunda onları sayta yerləşdirmək kimi məşğələlərə yer verilib. Tələbələrin qruplara bölündüyü təlimlər çərçivəsində jurnalistlər müxtəlif proqramlar üzərində işləməyi də tam mənimsəyiblər.

Qeyd edək ki, əsas məşğələlərə başlamazdan əvvəl tələbələrə sürətləndirilmiş ingilis dili kursu keçirilib. Qarşıdakı aylarda da tələbələrin ingilis dilini inkişaf etdirmələri məqsədilə dil kurslarının davam etdirilməsi planlaşdırılır. Təlimin növbəti mərhələsinə isə noyabrda start veriləcək.

Xatırladaq ki, təlimlərdə ən fəal iştirakçılar seçilərək 2013-cu ilin aprel ayında London və Kardiff şəhərlərinə göndəriləcəklər. Bu səfər çərçivəsində onlar BBC, CNN, "Reuters" agentliyinə, digər məşhur qəzet və jurnal redaksiyalarına baş çəkərək Böyük Britaniyanın aparıcı jurnalistləri ilə görüşmək imkanı əldə edəcəklər.

***Türkan Qəmbərova,***
***jurnalistika fakültəsinin magistrantı***

# "Mətnlərin nəşrə hazırlanması problemləri"




Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Vüsalə Musalının "Mətnlərin nəşrə hazırlanması problemləri" adlı monoqrafiyası işıq üzü görüb.

Monoqrafiyada elmi, elmi-kütləvi, klassik ədəbiyyatın nəşrə hazırlanması və redaktəsi məsələlərindən bəhs olunub. Dövri nəşrlərin tipoloji əlamətləri və növləri şərh olunub, elmi jurnalların növlərindən, məqsəd və oxucu təyinatından asılı olaraq növ və janrlarından, elmi jurnalların nəşri tarixindən və mərhələlərindən bəhs edilib, nəşrə hazırlanma və redaktə xüsusiyyətləri və s. problemlər işıqlandırılıb, azərbaycanda nəşr olunan elmi jurnalların, azərbaycanlı müəlliflərin elmi Məqalələrinin Thomson reyestrində öz əksini tapması, ölkəmizdəki elmi jurnalların bu agentliyin impakt faktorunu alması məsələləri və qarşıda duran vəzifələr araşdırılıb.

Sözügedən monoqrafiya müəllifin nəşr edilmiş dördüncü kitabıdır.

Kitabın redaktoru professor Nəsib Göyüşovdur.

# Prezident təqaüdçüləri

***Məlum olduğu kimi, Bakı Dövlət Universitetinin 10 tələbəsinə dövlət başçısı İlham Əliyevin sərəncamı ilə Prezident təqaüdü veriləcək. Onlardan 7 nəfəri hüquq, 1 nəfəri tətbiqi riyaziyyat və kibernetika, 2 nəfəri isə mexanika- riyaziyyat fakültəsinin tələbəsidir. Qəzetimiz vasitəsilə sizi onların hər biri ilə yaxından tanış edəcəyik.***

***Bu sayımızda Bəşirli Leyla və Rəşidov Anarla görüşdən hazırladığımız müsahibəni təqdim edirik:***

*Bəşirli Leyla 1995-ci ildə Bakı şəhərində anadan olub. Nefçala rayonu Mirqurbanlı kənd tam orta məktəbi "əla" qiymətlərlə bitirib. O, bu il 682 balla hüquq fakültəsinə daxil olub.*

*Rəşidov Anar 1994-cü ildə Şirvan şəhərində anadan olub. Şirvan şəhər 9 №-li orta məktəbi "əla" qiymətlərlə bitirib. Anar bu il 667 balla tətbiqi riyaziyyat və kibernetika fakültəsinə daxil olub.*

***- Necə oldu ki, məhz bu ixtisası seçməyə qərar verdiniz?***

**Bəşirli Leyla:** - Hüquqşünas olmaq mənim uşaqlıq arzum idi. Ağlım kəsən gündən qarşıma məqsəd qoymuşdum ki, bu arzuma nail olum. Şükür ki, ilk cəhdimdə bu arzumu həyata keçirə bildim. Buna görə çox sevincliyəm.

**Rəşidov Anar:** - Riyaziyyat fənninə uşaqlıqdan maraq göstərmişəm. Elə buna görə də bu ixtisası birinci yazdım və qəbul oldum.

***- Niyə özünüzü başqa sahənin deyil, məhz bu ixtisasın sahibi kimi görmək istədiniz?***

**Bəşirli Leyla:** - Ona görə ki xaraktercə çox ciddiyəm. Yaxınlarım xasiyyətimə yaxşı bələddir. Görünür, ciddilik, düzgünlük, qətiyyət və axıra qədər mübarizə aparmaq kimi xüsusiyyətlərim hüquq sahəsinə meyil göstərməyimə səbəb olub.

**Rəşidov Anar:** - Yaxınlarım mənə deyirdilər ki, sənin çevik təfəkkürün var. Bu, riyaziyyatla çox məşğul olmağımdan irəli gəlirdi. Həm də, zamanla anladım ki, mən bu sahənin adamıyam.

***- Sınaq imtahanlarında nə qədər bal toplaya bilirdiniz?***

**Bəşirli Leyla:** - Ən yüksək nəticəm 672 bal olmuşdu. Ancaq qəbulda daha yüksək bal topladım.

**Rəşidov Anar:** - Bütün sınaqlarda 600-dən çox bal toplayırdım.



***- İmtahan öncəsi hansı hissləri keçirirdiniz?***

**Bəşirli Leyla:** - İçimdə böyük bir inam hissi vardı. Ancaq bu inamı ətrafımdakılar bilmirdilər, büruzə vermirdim.

**Rəşidov Anar:** - Özümə çox inanırdım. Və bu inam hissi mənim uğur qazanmağımın yeganə səbəbidir.

***-İmtahana kiminlə getmişdiniz?***

**Bəşirli Leyla:** - Ailəmizdən heç kəsi qoymadım getməyə. Təkcə riyaziyyat müəlliməm gəlmişdi.İmtahandan çıxanda gördüm ki, atam da gəlib.

**Rəşidov Anar:** - Mən isə tək getmişdim. Heç kəsin həyəcan, narahatçılıq keçirməsini istəmirdim. Çünki mən nə üçün gəldiyimi yaxşı bilirdim.

***- Bir az da imtahanlara necə hazırlaşmağınızdan danışardınız...***

**Bəşirli Leyla:** - Şənbə və bazar günləri dərs oxumurdum. Bu günlərdə mümkün qədər yatırdım. Qalan günlərdə isə dərslərimlə ciddi məşğul olurdum.

**Rəşidov Anar:** - Dərslərə hər gün 3-4 saat vaxt ayırırdım. Mənim uğurlu nəticə göstərməyimdə Azərbaycan dili müəllimim Arzu müəllimin, fizika müəlliməm Qətibə xanımın xüsusi əməyi olub.

***- İlk dəfə universitetə gələndə özünüzü necə hiss etdiniz?***

**Bəşirli Leyla:** - Əvvəl Bakı Dövlət Universitetinə kənardan baxıb qorxurdum. Düşünürdüm ki, görəsən, mən bu universitetdə oxuya biləcəyəmmi? İndi arzuma çatmışam. Fikrimcə, belə bir universitetə qəbul olmuşamsa, çalışmalıyam ki, dərslərimi yaxşı oxuyub ümidləri axıra kimi doğruldum.

**Rəşidov Anar:** - Ailəmizdə məni başqa universitetə istiqamətləndirmək istəsələr də, mən BDU-da oxumaq qərarımı verdim. Təbii ki, belə bir qocaman universitetin tələbəsi olduğum üçün çox şadam. Qarşıda məqsədlərim var, inanıram ki, BDU arzularımın həyata keçməsində mənə böyük kömək olacaq.

***- Bilirdiniz ki, Prezident təqaüdünə layiq görüləcəksiniz?***

**Bəşirli Leyla:** - Yüksək bal topladığım üçün təxminən də olsa, bilirdim ki, Prezident təqaüdü alacağam. Ancaq riyaziyyat müəllimim zəng edib deyəndə ki, təqaüd alacaq tələbələr siyahısında sənin də adın var, lap əmin oldum və çox sevindim.

**Rəşidov Anar:** - Qəbul imtahanlarına hazırlaşdığım vaxtdan bu təqaüdü qazanmaq hədəflərimdən biri idi, 700 bal toplamağa iddialı idim. Ancaq psixoloji vəziyyətim buna mane oldu. İmtahana giriş vəsiqəm vaxtında təmin edilməmişdi. İnternetdə adım yox idi. Gedib TQDK-dan tələm-tələsik giriş vəsiqəmi aldım və imtahana son anda çatdım.

***- Prezident təqaüdünü nəyə xərcləməyi düşünürsünüz?***

**Bəşirli Leyla:** - Dünyagörüşümü genişləndirmək üçün çoxlu kitablar alacağam.

**Rəşidov Anar:** - Hələ ki, özümə gitara, velosiped almaq istəyirəm.

*Tələbələrimizi bir daha təbrik edir, onlara uğurlar arzulayırıq...*

***Kəramət Böyükçöl***

# ETİBARSIZDIR

Ekologiya və torpaqşünaslıq fakültəsinin III kurs tələbəsi Məmmədov Şəhriyar Azad oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Coğrafiya fakültəsinin III kurs tələbəsi Məmmədli Nuranə Binyamin qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüquq fakültəsinin II kurs tələbəsi Səmədov Əlibala Rafiq oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Fizika fakultəsinin III kurs tələbəsi Məmmədova Günel İbrahimqızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mexanika-riyaziyyat fakültəsinin II kurs tələbəsi Ağabəyli Nigar Mübariz qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mexanika-riyaziyyat fakültəsinin III kurs tələbəsi Bağırova Gülsün Sahib qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Biologiya fakültəsinin II kurs tələbəsi Məmmədova Abidət Babək oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinini IV kurs tələbəsi Orucova Ləman Ayaz qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kitabxanaçılıq və informasiya fakültəsinin III kurs tələbəsi Qaralı Fərizə Kamran qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kitabxanaçılıq və informasiya fakültəsinin III kurs tələbəsi Nağıyeva Ləman Tofiq qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüquq fakültəsinin III kurs tələbəsi Sultanlı İbrahim Zamin oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüquq fakültəsinin III kurs tələbəsi Qəşəmzadə Fuad Vahid oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ekologiya və torpaqşünaslıq fakültəsinin II kurs tələbəsi Rəhimli Həbib Sucətdin oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Coğrafiya fakültəsinin IV kurs tələbəsi Rəcəbli Nərmin Rəcəb qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Biologiya fakültəsinin IV kurs tələbəsi Abdullayeva Aysel Elman qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Biologiya fakültəsinin IV kurs tələbəsi Şükürlü Ülkər Yaşar qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Biologiya fakültəsinin II kurs tələbəsi Sultanlı Zərifə Elsevər qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tarix fakültəsinin III kurs Mirzəlizadə Məryəm İlham qızına məxsus t?l?b? vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tarix fakültəsinin III kurs tələbəsi Namazova Leyla Namaz qızına
məxsus t?l?b? vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Biologiya fakültəsinin II kurs tələbəsi Məmmədova Abidət Babək qızına məxsus t?l?b? vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüquq fakültəsini III kurs tələbəsi Nurəlizadə Pəri Nurəli qızına qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Sosial elmlər və psixologiya fakültəsinin IV kurs tələbəsi Hacıyev Davud Əhməd oğluna məxsus qiymət kitabçası və tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kitabxanaçılıq və informasiya fakültəsinin III kurs tələbəsi Həsənli Nərmin V?qar qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tarix fakültəsinin II kurs tələbəsi Tahirli Tərxan Fizuli oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Sosial elmlər və psixologiya fakültəsinin IV kurs tələbəsi Bağırov Həsən İlqar oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin II kurs tələbəsi Hüseynzadə Aydan Məhəmməd qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tarix fakültəsinin II kurs tələbəsi Məmmədov Toğrul Arif oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mexanika-riyaziyyat fakültəsinin IV kurs tələbəsi Zakirli Nailə Lütviyar qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tarix fakültəsinin II kurs tələbəsi Kazımov Orxan Hüseyn oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şərqşünaslıq fakültəsinin II kurs tələbəsi Manafova Nərgiz Rasim qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Biologiya fakültəsinin III kurs tələbəsi Cəfərova Nərmin Vahid qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

*Müsəlmanların müqəddəs bayramlarından olan Qurban bayramı bu il 25-26 oktyabra təsadüf edir. Bayram ərəfəsində onun tarixi, ölkəmizdə, o cümlədən tələbələrimiz tərəfindən necə keçirilməsi barədə yazını sizlərə təqdim edirik:*

# TANRIYA SEVGİ VƏ İNSANLIQ BAYRAMI

### Qurban ən qədim bayramlardandır

Dini qurban kəsmə mərasimi islamdan da əvvəl mövcud olub, lakin o vaxtlar günahdan təmizlənmək, qəzəblənmiş Allahın könlünü almaq və s. nəzərdə tutulurdu. Hicrinin (Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə köçməsinin) ikinci ilindən sonra dini qurban kəsmənin islam aləmində başqa məqsədləri və səbəbləri yarandı. Belə ki, dini qurban kəsmə islam aləmində böyük ruh yüksəkliyi, dindarlıq, xeyriyyəçilik, başqalarına kömək etmək kimi əlamətlərə yiyələndi.

Dini qurban kəsmə İbrahim peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranmışdır. Belə ki, yuxuda Allah İbrahim peyğəmbərə oğlu İsmayılı qurban verməyi (onun imanını yoxlamaq üçün) əmr edir. İbrahim əsl dindar kimi Allahın əmrini yerinə yetirməyə hazır idi, İsmayıl özü də qurban olmağa razılaşır. Lakin uca Allah bunu öz elçisinə rəva bilmir və qurbanlıq üçün ona bir qoç göndərir. Buna görə də Qurbanlıq bayramında kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər. Din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir.

Səmavi dinlərin: yəhudilik, xristianlıq və islamın hər üçündə müxtəlif formada qurbanlıq mövcuddur. Lakin islamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində qeyd edilməyə başladı.

### Bəs Qurban bayramında hansı qaydalara riayət olunmalıdır?

İlk növbədə onu nəzərə almaq lazımdır ki, qurban kəsiləcək heyvan mütləq halal yolla qazanılmış pulla alınmalıdır. Əgər kiminsə borcu varsa və bu borcu qaytarmağa imkanı yoxdursa, həmin şəxslər qurban kəsməyə də bilərlər.

### Qurbanlıq heyvanın seçilməsində hansı şərtlər gözlənilməlidir?

Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olmasına üstünlük verilir. Qurbanlıq qoçun yaşına gəlincə, bu ən azı altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Qurbanlıq heyvanın hər hansı nöqsanı olmamalıdır. Yəni buynuzu sınıq, şikəst, hər hansı fiziki çatışmazlığı olan heyvanı qurban kəsmək olmaz.

### Qurban gününün hansı saatında kəsilməlidir?

Yaxşı olardı ki, qurbanlıq heyvan zöhr namazınadək (günorta namazı) kəsilsin. Ancaq günün bu vaxtından sonra da qurban kəsməkdə heç bir qəbahət yoxdur.

### Qurban əti hansı prinsiplər əsasında paylanmalıdır?

Qurban ətinin 1/3 hissəsi qurban kəsən ailədə qalmalıdır. Ətin 1/3 hissəsi yoxsul təbəqəyə, 1/3-i isə mömün insanlara paylanmalıdır.

### Qurbanlıq heyvanın ayaqları və başı, dərisi satıla bilərmi?

Burada heç bir qəbahət yoxdur. Ancaq yaxşı olardı ki, qurbanlıq heyvanın baş-ayağı və dərisi ehtiyacı olan insanlara verilsin.

### Qurban ətindən hansı xörəkləri bişirmək olar?

Qurban ətindən bütün xörəklər bişirilə bilər. Bunun üçün heç bir qadağa yoxdur.

### Bayram namazı necə qılınmalıdır?

Fitr və Qurban bayramı namazlarının vaxtı günəş doğandan günortayadəkdir. Amma müstəhətdir ki, Qurban bayramının namazı günəş qalxdıqdan sonra, Fitr bayramının namazı günəş qalxdıqdan sonra iftardan, fitrə zəkatı verildikdən sonra qılınsın.

### Bəs, görəsən, tələbələrimiz Qurban bayramını necə keçirirlər?

Qarşıdan gələn Qurban bayramını qeyd etmək üçün ata-baba yurduna getməyə hazırlaşan **İlahiyyat fakültəsinin 3-cü kurs tələbəsi İlkin Şərifov** qeyd etdi ki, uşaq vaxtı bu bayramı adi əyləncəli gün saysa da, yaşa dolduqca bu dini mərasimin mahiyyətinin daha ciddi olduğunu anlayıb:

"Qarşıdan müsəlmanların müqəddəs bayramı olan Qurban bayramı gəlir. Mən də bir müsəlman kimi bu bayramın gəlişini səbirsizliklə gözləyirəm. Uşaqlıqdan bəri bayramları çox sevmişəm, xüsusən də Qurban bayramını. Hər dəfə evimizdə qurban kəsiləndə babamın Hz. İsmayıl haqqında olan rəvayəti danışmasını istəyərdim. Qurban bayramını mənim üçün daha da sevimli edən digər bir cəhət isə bu bayramda evimizdə kəsilən qurban ətindən imkansız şəxslərə pay verilməsidir. Hər il bayram zamanı bütün ailəmiz: əmilərim, bibilərim ata ocağına, yəni babamgilə toplaşardı və əsl bayram ab-havası yaşanardı. Təbii ki, uşaqkən bu bayramın mahiyyətini dərk etmirdim, sadəcə əyləncədən ibarət olduğunu sanırdım, ancaq yaşa dolduqca Qurban bayramının sadəcə əyləncə olmadığını, onun mahiyyətinin kimsəsizlərə yardım etmək və qohumları ziyarət etmək olduğunu anladım. Artıq bu il bayramı qeyd etmək üçün ata-baba yurduna getməyə hazırlaşıram. Hər birinizin bayramını təbrik edirəm".

### Jurnalistika fakültəsinin 4-cü kurs tələbəsi Röya Qarabağlı:

"Qurban bayramı ilə bağlı çox zaman anamdan maraqla soruşardım ki, sən uşaq olanda da bayram belə qeyd olunurdu? O isə vəziyyəti belə izah edirdi: "O vaxt bayram kimi belə təntənəli surətdə qeyd edilmirdi. Amma valideynlərim hər zaman bu buyuruğu yerinə yetirirdilər. Kəndimizdə hamı qurban kəsmirdi. Yalnız imkanı yaxşı olan ailələr kəsirdi. Məkan çox kiçik olduğundan kimin qurban ətinə ehtiyacı olduğunu bilir və qurban payından ona verirdik. Həmin gün özümüz də ailəlikcə bir süfrə arxasına yığılırdıq. Digər məsələ isə ondan ibarət idi ki, o zaman insanlar Qurban bayramı ilə əlaqədar ətin qiymətini qaldırmırdılar, əksinə hamı ala bilsin, evində ət bişsin deyə qiyməti aşağı da salırdılar.Bu gün isə bayram təntənəli şəkildə qeyd olunur. İnsanlarımızın çoxu qurban kəsir. Lakin məsələ ondadır ki, çox zaman ehtiyacı olan insanları tapıb qurbanlığı ona vermirlər. Sadəcə "Allahın qulu kimi bunu edib vəzifəmi yerinə yetirim", - deyə yaxınlığdakı qohum-qonşuya paylayırlar. Digər tərəfdən, bizim dövrlə müqayisədə indi bu bayrama daha yaxşı dəyər verilir. Şirkətlər tərəfindən kampaniyalar keçirilir, ətə ehtiyacı olanlara paylanır. Bu çox təqdirəlayiq haldır.

Bayramdan öncə həmişə qoyun almağa gedirdik. Onda mən çox sevinirdim. Qoyunu həyətimizə gətirəndən etibarən evə, demək olar ki, girmirdim. Yemək yeməyə çağıranda da onunla oynamağı üstün tuturdum. Amma bir müddətdən sonra pis olurdum: mənim əzizlədiyim, oynadığım qoyunu kəsəcəkdilər. Boynuma alıram və bundan utanmıram. Uşaq vaxtı həmişə ağlayardım ki, mənim qoyunumu kəsməyin. Anam da həmişə deyərdi ki, qurbanlıq qoyuna görə ağlamazlar. O, indi sevinir. Çünki Allah yolunda o seçilir. Ona görə ən gözəl, yaraşıqlı qoyunları seçirlər qurbanlıq üçün. Zaman keçdikcə mən bunu anladım. Artıq buna görə ağlamıram".

***

### Bayram xəbəri

Rusiyada müsəlmanların müqəddəs Qurban bayramı ilk dəfə olaraq Kremldə qeyd olunacaq. Bu tədbir "Dostlarla Qurban bayramı" adlanır. Ekspertlərin fikrincə, Qurban bayramı ilə əlaqədar tədbirin Kremldə keçirilməsinin əsas məqsədi Rusiyada dinlərarası və millətlərarası dialoqun və səmimi qonşuluq münasibətlərinin mövcudluğunu göstərməkdir. (mənbə: azadqadin.az)

***

***Biz də oxucularımızı bayram münasibətilə təbrik edirik. Sevgi sözə dolarsa, dua olar, dua Allaha çatarsa, nur olar. Eyni yolda birləşən dualarımızın nura çevrilib Rəbbimizə çatması diləyi ilə bayramınız mübarək olsun!..***

***Aynur Qurbanqızı***

---

Şeir çələngi

## RƏNAM MƏNİM, DÜNYAM MƏNİM



Mən arxayın yaşamağı
uşaqlıqdan bacarmıram!
Əgər lap bir az bacarsam,
odun ilə sızlamaram!
Ötüb gedər gündüzlərim,
gecələrim aram-aram,
Gecəyarı: "Vaxt ötüşür, yat", -
söyləməz
anam mənim -
*Rənam mənim, dünyam mənim.*
***
Sən nənəmin danışdığı
əfsanəmi, nağılmısan?
Deyən arzu-diləklərin
ən safından doğulmusan!
Taleyimin hər anına,
hər gününə dağılmısan...
Şirin nağıl dünyasından
uçub gələn röyam mənim,
*Rənam mənim, dünyam mənim.*
***
Mən ömrümün sənli olan
günlərinin sorağında,
Sən bəxtimin ilk sözüsən, son sö-
züsən
taleyimin varağında.
Bir təbəssüm oxunanda
gül çöhrəndə, yanağında
Sanaram ki, yer üzündə ən qiy-
mətli
ənam mənim!
*Rənam mənim, dünyam mənim.*
***
Səfər-səfər dolansam da
mən dünyanın harasında,
Düşünürəm çırpındıqca məni didən
şübhələrin arasında,
Ya bəxtimin öz rəngi var, ya səa-
dət
gözlərinin qarasında.
Ömür boyu şübhələrlə pəncələşən
xülyam mənim,
*Rənam mənim, dünyam mənim.*
***
Ürəyim bir nur çeşməli bulaq idi,
damızdırdın məhəbbətin dadın ora,
Prometeytək bağışladın
allahların odun ora.
Hardan belə həkk olundu adın
ora?
Ey Qobustan dəyanətli qayam mə-
nim,
qayəm mənim,
*Rənam mənim, dünyam mənim.*
***
Ömrün ötən günlərinə boylanıram:
mən onları xoş bilərdim,
mənasızmış!
Bir fərqi var o günlərin
bu günlərdən: Rənasızmış!
İndi ömrə ömür gəlmiş,
həyat qonmuş,
mənasızmış!
Səadətim, bəxtim mənim,
mənam mənim -
*Rənam mənim, dünyam mə-
nim!..*

***Fikrət***

## GECƏNİN ROMANTİKASI

Gecə aydın... Ay üzündən.
Nur çiləyər göy Xəzərə.
Bircə yarpaq düşümündən,
Səs yayılar hər tərəfə.

Səma aydın...Sayrışanlar,
Qaş-göz edər bir-birinə.
Ay utanıb daldalanar,
O ulduzların yerinə.

Xəzər dönüb ağ gümüşə,
Öz sahilin ovsunlayar.
Ləpələr də bu görüşə,
Gələn kəsi tumarlayar.

Yaz gecəsi şeh bol olar,
Çiçək üstə yerin salar.
Bihuş olar xoş ətrindən,
O bəxtəvər ta sübhəcən.

Qızıl boyun bağı kimi,
Bərq vuranda gecə şimşək.
Ağ buludlar gəlin kimi,
Onu bağlar bir kəmər tək!

***Mirzağa Mahmudlu***

---

## "Azərbaycan – gözəl diyar!"

***"Azərbaycan - Avropa gənclərinin əməkdaşlığı" ictimai birliyi Bakı Dövlət Universiteti Tələbə Gənclər Təşkilatı ilə birgə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Azərbaycan - gözəl diyar!" adlı layihəni icra edir.***

Layihənin əsas məqsədi Azərbaycanda təhsil alan xarici tələbələrə Azərbaycanın tarixini və mədəniyyətini tanıtmaq, əcnəbi tələbələrin ölkəmizin regionlarına səfərlərini gercəkləşdirməkdən ibarətdir.

***İlk səfər Lənkəran şəhərinə təşkil olundu.*** Səfər çərçivəsində Azərbaycanda təhsil alan əcnəbi tələbələr Lənkəranda Heydər Əliyev mərkəzi, Həzi Aslanovun ev muzeyi, Lənkəran Tarix Diyarşünaslıq Muzeyi, Dairəvi Qala abidə kompleksi, Lənkəran Dövlət Dram Teatrı ilə tanış oldular. Lənkəran Gənclər evində isə tələbələrin Lənkəran Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatı ilə və region gəncləri ilə görüşü həyata keçirildi.

***Növbəti səfər Gəncə şəhərinə oldu.*** Azərbaycanın qədim şəhəri olan Gəncədə əcnəbi tələbələr Gəncə şəhər Tarix Diyarşünaslıq muzeyində, Şah Abbas Jümə məscidində, Cavad xanın məqbərəsində oldular. Daha sonra Gəncədə məşhur olan Xan bağında gəzinti, Çökək hamam kompleksi ilə tanışlıq oldu. Ümummilli liderimiz Heydər Əliyevin xatirə muzeyində olan xaricilər dahi şəxsiyyətin həyat və yaradıcılığı ilə yaxından tanış oldular. Bununla yanaşı "Gələcəyə körpü" ictimai birliyinin və Gəncə Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının fəal üzvləri ilə görüşlər təşkil edildi. Böyük marağa səbəb olan Şüşəli evdə əcnəbi tələbələrə ekskursiya təşkil olundu. Qədim Hüsniyyə məscidində olan tələblər sonda dahi şair Nizami Gəncəvinin məqbərəsini də ziyarət etdilər.

Layihə çərçivəsində Dünya Azərbaycanlıları Gənclər Birliyinin təşkilati dəstəyi ilə əcnəbi tələbələrə Azərbaycan, Qarabağ həqiqətləri haqqında kitablar, bayraqlar və köynəklər hədiyyə olundu.

*Qeyd edək ki, layihədə Nigeriya, Türkiyə, Rusiya, Çin, Jənubi Koreya, Yaponiyadan olan və Azərbaycanda təhsil alan əcnəbi tələbələr iştirak edirdilər. Xarici tələbələrin növbəti səfərləri Şəki və Quba şəhərlərinə təşkil olunacaq.*



Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

№ 10 (1433) 16 oktyabr 2012-ci il



## Tələbələrin nəzərinə!

**Xüsusi istedada, jurnalistlik qabiliyyətinə, yaradıcılıq bacarığına maliksinizsə və tanınmaq istəyirsinizsə "Bakı Universiteti" qəzetinə müraciət edin.**

**Psixoloji məsləhət**

# 3 sual 3 cavab

***Bu sayımızdan etibarən müəllim, tələbə və əməkdaşlarımızı narahat edən və maraqlandıran psixoloji məsələlərə aydınlıq gətirmək, onlara məsləhətlər vermək məqsədilə yeni rubrikaya start veririk. "3 sual 3 cavab" adlanan rubrikamız vasitəsilə qəzetimizə ünvanladığınız sualları Peşəkar Psixologiya Mərkəzinin rəhbəri Nuriyyə Quliyeva cavablandıracaq.***



***Sual (əməkdaş): - Mən yaşlanmaqdan çox qorxuram. Elə buna görə də hər il doğum günlərimi bədbin əhvali-ruhiyyədə keçirirəm. Hər gün qocalacağım, gəncliyimi itirəcəyim barədə düşünəndə depressiyaya düşürəm. Xahiş edirəm, mənə kömək edəsiniz.***

**Cavab:** - Yaşınızın artmasından daha çox, yaxşı olar ki, həmin yaşınızdakı fəaliyyətinizə, qazandıqlarınıza, faydalı olduğunuza daha çox diqqətinizi yönəldəsiniz. Belə olan halda həmin yaşın heç də boşuna keçmədiyini düşünmək daha da faydalı olacaq. Hər yaşın bircə dəfə yaşandığını və təkrarolunmazlığını qəbul edərək, yaşınızı sevin və özü ilə gözəlliklər gətirdiyini düşünərək yaşamınızdan zövq almağa üstünlük verin. Necə deyərlər, hər yaşın öz gözəlliyi var..

***Sual (tələbə): Qarşımdakı insan kefsiz olduğu zaman bu, dərhal mənə təsir edir. Bu kimi neqativ enerjidən necə xilas ola bilərəm?***

**Cavab:** Heç kim daim xoşbəxt və şən görünə bilməz. Hər kəsin yaşadığı çətin anlar onun simasında müəyyən qədər də olsa, əksini tapır. Bu zaman üç yanaşma seçə bilərsiniz. Birincisi, həmin insandan problemini soruşaraq onu anladığınızı, kömək etmək istəyinizi büruzə verməkdir. Belə olduqda ən azından istəkdəki suallar öz cavabını tapmış olar və gün boyu bu haqda düşünərək narahatlıq keçirməzsiniz. İkincisi, psixoloji olaraq özünüzü bu mənfi enerji axınından blok edə bilərsiniz. Və ya o andaca həmin insandan uzaqlaşıb sizdə müsbət əhvali-ruhiyyə yarada biləcək insanlarla ünsiyyət qurmağa çalışa bilərsiniz.

***Sual (tələbə): - İnsanlara qarşı mülayim rəftar etdiyim zaman səmimiyyətimdən istifadə edirlər. Bu hal o qədər təkrarlanıb ki, artıq mən heç kəsə inanmır və hamı ilə məsafəli rəftar edirəm. Ancaq insanlardan qaçdığım üçün mənəvi narahatlıq da keçirirəm. Bu halda mən nə etməliyəm?***

**Cavab:** - Tanışlıqlar zamanı çalışın, qarşınızdakı insanı təhlil edin. Hamı eyni deyil. İnsanları ələ verən müəyyən davranışları olur. Dostluqda seçici olun. Az dosta malik olmaq insanlardan kənarda qalmaq demək deyil. Çalışın, qarşınızdakı insana qarşı xüsusi davranış mövqeyi seçin. Səmimiyyətinizdən istifadə edən insanlara ilk ünsiyyətlərinizdə artıq məsafəli mövqeyinizi göstərin. İnanın ki, bu, sizə müsbət təsir edəcək.

***"Bakı Universiteti"***

**Əslində isə...**

# MƏNİM QİSMƏTİM...



***Yeni rubrikamız olan "Əslində isə..." vasitəsilə bir çoxlarımızın müxtəlif mövzular ətrafında doğru bilmədiyimiz məlumatlara aydınlıq gətirəcəyik.*** Bu sayımızda insanın seçim azadlığından bəhs etmək istəyirik. Təəssüf ki, bəzi insanlar "alın yazısı", "qismət" kimi anlayışlar barədə yanlış məlumata malik olduqlarından əksər hallarda ruhdan düşür, "hər şey qismətdən asılıdır" deyə məqsədləri uğrunda mübarizədən çəkinirlər. Əslində isə bu məsələni AMEA-nın elmi işçisi, ilahiyyatçı alim, fəlsəfə doktoru Elşən Mustafaoğlu belə izah etdi:

- Allah insanı əbədi səadət üçün yaradıb. Amma insanı elə yaradıb ki, bunu öz seçimi ilə, özü qazanmalıdır. Bu dünyaya da insanı sınanmaq üçün gətirir. İnsana ağıl verib, üstəlik vəhy vasitəsilə səadət yolunu açıqlayıb. İnsana seçim azadlığı verib: qarşısındakı alternativlərdən birini seçsin, o seçimə görə də aqibəti bəlli olsun. Yaxşını (müsbəti, xeyri) seçənin aqibəti yaxşı (dünyada qəlb rahatlığı və axirətdə cənnət - əbədi səadət), pisi (mənfini, şəri) seçənin isə aqibəti pis (dünyada qəlb sıxıntısı, axirətdə isə cəhənnəm) olur. Birincilər xoşbəxt, ikincilərsə bədbəxt olur: dünyada öz seçimlərilə qurduqları həyata görə.

Bu dünya sınaq dünyasıdır: yaxşı ilə pis, xeyirlə şər, mənfi ilə müsbət alternativləri arasındakı seçmimizə görə də müqəddəratımız həll olunur. İradəmiz daxilində nə varsa, o hallarda seçim imkanı da bizə aiddir, əlbəttə, Allahın razılığı ilə. Amma iradəmiz xaricində olan hər şey: dünyaya gəlməyimiz, kişi və ya qadın cinsində doğulmağımız, ata-anamızın kim olması, ümumiyyətlə, dünyadan köçmək və s. - bunlar isə İlahinin təqdiridir.

Qəza və qədər bütün bu hüdudlar daxilində qurduğumuz həyatımıza yön verir. Həm İlahinin təqdiri, həm də bizim seçimimiz gələcək taleyimizin təyinində öz sözünü deyir...

# Tələbə Həmkarlar İttifaqı Komitəsi birincilərlə görüşüb







THİK bu il tələbə adını qazananlarla görüşlərə start verib. Universitetə yeni qəbul olmuş 4000-ə yaxın tələbəni əhatə edən görüşlər həm tələbələr, həm də komitə üçün mühüm əhəmiyyət kəsb edir. Sözügedən görüşlərdə tələbələrə THİK haqqında geniş məlumat verilir, tələbələr universitetin nizam-intizam qaydaları ilə yaxından tanış edilir və tələbələri maraqlandıran bütün suallar komitə sədri Daşqın Qənbərov tərəfindən cavablandırılır, onlara istiqamət verilir. Görüşlər I kurs tələbələri tərəfindən də çox böyük ruh yüksəkliyi ilə qarşılanır. Məhz bu görüşlərin nəticəsidir ki, artıq minlərlə tələbə THİK üzvlüyünə qəbul olmaq üçün ərizə-anketləri doldurmaqdadır. Ümumilikdə isə THİK-in bu fəaliyyəti yenicə tələbə adı qazanmış gənclərin universitetin ictimai həyatına asanlıqla qoşulmalarına xidmət edir.

**Redaktordan...**

# Dinləmək müdriklik göstəricisidir

*Yunan filosofu Sokrat ondan dərs almaq istəyən şagirdlərdən birindən qarşılığında yüksək məbləğ tələb etdiyi zaman şagird:* "Mən bu qədər pula 2-3 müəllim tuta bilərəm", - deyib. Sokrat isə: "Övladım, mən bu pula sənə həm danışmağı, həm də dinləməyi öyrədəcəyəm", - cavabını verib. Bəli, danışmaqla yanaşı, dinləmək mədəniyyəti də önəmlidir. İstərdim ki, dinləməkdən danışım...



**Anzulə Əmirova**

Dinləmək münasibətlərin davam etməsi, insanlar arasında güvən hissinin artması, cəmiyyətdə uğurlu nəticələrin əldə edilməsi baxımından olduqca böyük əhəmiyyət kəsb edir.

Doğrudur ki, danışmaq hər bir insanın mənəvi ehtiyacları sırasına daxildir və bizlər hansısa məsələdə düzgün nəticəyə gəlmək üçün ətrafımızdakılarla fikir mübadiləsi aparmaq məcburiyyətindəyik. Bu baxımdan qarşımızdakının fikirlərini dinləməyimiz təbii hesab olunmalıdır. Amma gəlin görək dinləməyi nə dərəcədə bacarırıq. Sadə müşahidələr onu deməyə əsas verir ki, bəzilərimiz dinləmək mədəniyyəti sarıdan hələ yetişməmişik.

Bu gün insanlar dinləməkdən çox danışmağa önəm verir. Hamı danışır: doğru-yalan, maraqlı-maraqsız, elmli-elmsiz, yerli-yersiz... Qulaq asansa demək olar ki, yox dərəcəsindədir. Ancaq söhbət zamanı əvvəldən axıradək bir nəfərin danışması və qarşısındakını müqəvva yerinə qoyması, ümumiyyətlə, anormal haldır. Çünki danışmaqla yanaşı dinləmək mədəniyyəti olmayan, qarşı tərəfin fikirlərinə önəm verməyən, özü beş cümlə deyəndə həmsöhbətinin də heç olmasa, bir cümlə söyləməsinə imkan verməyən şəxs kənardan çox gülünc görünür. Bu baxımdan insanların bir-birini dinləməsi önəmlidir.

Önəmlidir, qarşısındakını doğru anlamaq üçün. Önəmlidir, özünün gözdən düşməməsi üçün. Önəmlidir, söhbətin bezdirici, qovucu, hörmətsiz hal almaması üçün. Ən əsası isə qarşısındakının sevgi və sayğısını itirməməsi nöqteyi-nəzərindən önəmlidir.

Fikir vermisinizsə, dinləmə qabiliyyəti olan, pozitiv düşüncəli, qarşısındakının fikirlərinə hörmət edən, yeni fikirləri qəbul edə bilən, bu baxımdan öz üzərində daim işləyənlərlə çox faydalı, könül oxşayan söhbət alınır və belə adamların dostu da çox olur. Təəssüf ki, indi belələrinin sayı azdır. Əksinə müasir dövrdə bir çoxları söhbət zamanı qarşısındakına aman vermir. Elə hey danışır... Həmsöhbət olduğu insana qarşı bivec davranması, onu dinləməməsi, öz həqiqətlərini bir növ həmsöhbətinin beyninə yeritməyə çalışması - bir sözlə, saymazyana rəftar edərək yalnız öz fikirlərini diktə etməsi adamı bezdirir, beləsinin təkrar-təkrar hansısa fikrində israr etməsi sıxıcı olmaqla yanaşı, onu nüfuzdan da salır. Mən bu cür insanların psixoloqa müraciət etmələrini tövsiyə etməkdən başqa çarə görmürəm. Ancaq dərd orasındadır ki, durmadan danışanlar söhbətlərində uzunçuluğa vardıqlarının fərqinə belə varmır, özlərini haqlı sayır, ürəklərini boşaltmaqla yetinməyib kiminsə danışmasına israrla aman vermirlər. İnanın ki, bu, ətrafdakılara yaxşı təsir bağışlamır. Dahi şairimiz Nizami Gəncəvi doğru demişdir ki:

***Dilin bəlasıdır uzunçu olmaq,***
***Ariflər işidir sükuta dalmaq.***

*Yunan riyaziyyatçısı Pifaqor: "Ya sus, ya da susmaqdan üstün bir söz söylə", - deyib.* Həqiqətən də, dinləməyi bacarmayan, danışdıqları isə ətrafdakılar tərəfindən anlaşılmayanlar buna əməl etsələr, daha müdrik görünə bilərlər .

Qəbul etməliyik ki, susmağı da hər adam bacarmır. Bunun üçün insana ən azından böyük səbir lazımdır. Bəlkə də, elə bu səbəbdən alman mütəfəkkiri Göte deyib ki, "danışmaq ehtiyac ola bilər, amma susmaq bir sənətdir". İki qulağımız, bir ağzımız var deyə, çox dinləyib, az danışmağın daha faydalı olduğunu da əbəs yerə deməyiblər.

Zənnimcə, danışmaq və dinləmək ayrılmaz bağlılığa, eyni dərəcədə əhəmiyyətə malikdir. Mən inanmıram ki, dinləməyi bacarmayan birisi gözəl danışıq qabiliyyətinə malik olsun.

*İnsanlararası münasibətlərin inkişaf etməsi, yeni fikirlərin ortaya çıxması baxımından dinləmə mədəniyyətimizi inkişaf etdirməyimiz nəinki özümüz, bütün cəmiyyətimiz üçün faydalı ola bilər. İnsan heç ummadığı vaxtda gözləmədiyi birisinin fikirlərinə qulaq asan zaman belə nəsə öyrənə, yeni bir bilgi əldə edə bilər. Söhbət əsnasında durmadan həmsöhbətimizin sözünü kəsməyimiz, ona məhəl qoymamağımız özümüzü ondan üstün hesab etməyimizin və hərəkətlərimizi idarə edə bilməməyimizin göstəricisidir.*

***Üstəlik, DİNLƏMƏK MÜDRİKLİK və SADƏLİK göstəricisidir. Hamımıza sadə olmaq diləyilə...***

Baş redaktor: Anzulə ƏMİROVA

Redaksiya heyəti: Solmaz Babaşova, Aynur Qurbanqızı, Tamilla Müslümova, Salam Muxtarov, Kərəmət Böyükçöl

Redaksiyanın ünvanı: Bakı, akad. Zahid Xəlilov küç. 23, BDU-nun əsas binası, III mərtəbə
Tel.: 539-03-64, 539-04-78
e-mail: anzule@mail.ru

Sifariş: 162
Tiraj: 2000

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır